Dərslik

# Həyat bilgisi

## 4







# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

*NƏRGİZ CABBARLI*
*KÖNÜL MAHMUDOVA*

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*

# Həyat bilgisi

*fənni üzrə*

**DƏRSLİK**

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# Mündəricat

## I BÖLMƏ

## CANLI HƏYAT



1. Orqanlarımız ........................................ 8


2. Bitkilərin həyatımızda rolu............12


3. Heyvanların həyatımızda rolu .......16


4. İnsan və mikroorqanizmlər............21


5. İnsana təsir edən amillər .............25


6. Sağlamlığımızın qayğısına qalaq.....29


7. Mühit amillərinin canlılara təsiri ...34


8. Ətraf mühitin qorunması ..............38




# II BÖLMƏ



## FƏRD, AİLƏ VƏ CƏMİYYƏT




9. İnsan sosial varlıq kimi ........................ 42



10. Ailənin cəmiyyətdə rolu .................... 46



11. Ailədə və kollektivdə vəzifələrimiz ... 50



12. Cəmiyyətdə ünsiyyətin rolu.............. 54



13. Mənəvi keyfiyyətlərimiz .................. 58



14. Mənəvi borc ........................................ 62



15. Dini dəyərlər ...................................... 66


# III BÖLMƏ



## DÖVLƏT VƏ HÜQUQ


16. Dövlət orqanları ................................. 70



17. Hüquqlarımız ...................................... 74



18. Dövlət büdcəsi .................................. 78



19. Pullar ................................................. 82

# IV
BÖLMƏ



## SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK




20. Fövqəladə hallar və nişanlar ............ 86



21. Fövqəladə hallarda davranış qaydaları ............ 90



22. Planın çəkilməsi ............ 94



23. İlk tibbi yardım ............ 98



24. Yol hərəkəti qaydaları ............ 102


# V
BÖLMƏ



## HƏRƏKƏT VƏ ENERJİ





25. Coğrafi obyektlər xəritədə ............ 106



26. Təbii zonalar ............ 111



27. Təbii ehtiyatlar ............ 116



*Mövzu ilə tanış olaq*



*Nəticə çıxaraq*

**Tədqiqat sualı**

*Sual*

*Tapşırıq*

*Yaddaş*

**Fəaliyyət**

*Fəaliyyət üçün lazım olanlar*










Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.



# 1 Orqanlarımız



Yer üzərində canlılar nə qədər müxtəlif olsa da, onları birləşdirən bir sıra ümumi xüsusiyyətlər var. Canlılar qidalanır, tənəffüs edir, hərəkət edir, çoxalır, böyüyür, inkişaf edir. İnsan da canlıdır. Onun orqanizmində də bu proseslər baş verir. Deməli, o da digər canlılar kimi bioloji varlıqdır.

Orqanizmdə baş verən proseslərdə müxtəlif orqanlar iştirak edir. Onların orqanizmimizdə müəyyən yeri və funksiyası var. Orqanlar bir-biri ilə əlaqəli işləyir. Bədənimizdəki bütün orqanların işini tənzimləyən **beyin**dir. O, bədənimizi idarə edir və digər orqanların işini nizamlayır.

**Ürək** qanı damarlara ötürür. Qan damarlarda hərəkət edərək qida maddələrini bədənimizin hər yerinə çatdırır, zərərli maddələrin isə çıxarılmasını təmin edir. Biz **ağ ciyərlər** vasitəsilə tənəffüs edirik. Nəfəs aldıqda və verdikdə ağ ciyərlərin həcmi dəyişir. Nəfəs aldıqda oksigenlə zəngin hava ağ ciyərlərə daxil olur. Nəfəs verdikdə isə karbon qazı ilə zəngin hava ağ ciyərlərdən çıxır.

**Böyrəklər** qanı süzgəc kimi süzərək bədənimizi zərərli maddələrdən təmizləyir. **Qara ciyər** isə tərkibindəki zəhərli maddələri zərərsizləşdirərək qanı bədənimizə ötürür.

Qəbul etdiyimiz qidalar ağızda çeynənir və **mədə**yə düşür. Mədə əzələlərinin yığılıb-boşalması nəticəsində qida qarışır və mədə şirəsinin təsiri ilə həzm olunur. Həzm prosesi **bağırsaqlarda** davam edir.

Orqanlarımızın yerinə yetirdiyi işi bilmək vacibdir.

**Sizcə, orqanlarımız nə üçün bir-biri ilə əlaqəli işləyir?**

# Fəaliyyət

İnsan orqanlarının bədəndəki yeri. Onların bir-biri ilə əlaqəsi və yerinə yetirdiyi iş.

**Lazım olan şəkillər:**






1 

Orqanların şəkillərini kəsin.

2 


Orqanların adlarını qeyd edin.

3 

Hər bir orqanın şəklini insan modelinin uyğun yerinə yapışdırın.

4 


Hər bir orqanın yerinə yetirdiyi işi şəklin yanında yazın.

5 


Bir-biri ilə əlaqəli çalışan orqanları müəyyənləşdirin və qeyd edin.

6 

Bu əlaqənin nədən ibarət olduğunu müzakirə edin və nəticələri yazın.

1. Hansı orqanları yerləşdirərkən çətinlik çəkdiniz?
2. Yerləşdirdiyiniz orqanlar başqa hansı orqanlarla əlaqəlidir?



Hansı duyğu orqanlarını tanıyırsınız?

Orqanlardan hansılar ərtaf aləm haqqında məlumat almağımızı təmin edir?



Şəkillərdəki hansı orqan ətraf aləmdən aldığımız məlumatları qəbul edir və ümumiləşdirir?



Sizcə, hər hansı bir orqanın fəaliyyətinin pozulduğunu necə hiss edə bilərik?

Aşağıdakı xüsusiyyətlər hansı orqanlara aiddir?

dəri ürək ağ ciyərlər beyin

- Gözümüzü yumaraq əşyanın formasını, bərk, isti, soyuq, yumşaq olmasını ______ vasitəsilə hiss edə bilərik.
- Nəfəsalma və nəfəsvermə zamanı ______ həcmi dəyişir.
- Elmdə əldə edilən nailiyyətlər, insanın şüurlu fəaliyyəti ______ gedən proseslər nəticəsində baş verir.
- ______ yığılıb boşalır və qanın bədəndə hərəkətini təmin edir.

Qanın zərərli maddələrdən təmizlənməsində hansı orqanlar iştirak edir?

Uyğunluğu müəyyən edin:

| | |
|---|---|
| Dəri | **1.** Zəhərli maddələri zərərsizləşdirir. |
| Qara ciyər | **2.** Bədənimizə qida maddələrini çatdırır. |
| Mədə | **3.** Qidanı həzm edir. |
| Ağ ciyərlər | **4.** Qanı süzür. |
| Ürək | **5.** Bədəni zədələnmələrdən qoruyur. |
| Böyrək | **6.** Qanı oksigenlə zənginləşdirir. |

Düzgün variantı seçin.

★ Nəfəs aldıqda **ağ ciyərlərə/qara ciyərə** hava daxil olur

★ Qan **damarlar/ürək** vasitəsilə qanı və qida maddələrini bədənə çatdırır.

★ **Böyrək/ürək** qanı süzgəc kimi süzərək lazımsız maddələri ayırır.

★ **Beyin/böyrəklər** hərəkətlərimizi, düşüncələrimizi idarə edir.

★ **Mədə/dəri** bədənin üzərini örtərək onu zədələnmədən qoruyur.




İnsanın qulaqları eşitmə funksiyasını yerinə yetirir. Lakin qulaqlar həm də insanın müvazinətinin qorunmasında iştirak edir.




Gülmək insanın ürəyini sağlamlaşdırır. Alimlər müəyyən ediblər ki, gülüş sayəsində insanların ürək divarları daha yumşaq olur, qan dövranı isə təxminən 20 faiz sürətlənir.




İnsan bədənində müxtəlif orqanlar yerləşir. Onların hər birinin öz funksiyası var. Orqanlar bir-birinə kömək edir, bir-biri ilə əlaqəli işləyir.

# 2 Bitkilərin həyatımızda rolu



Bitkilərin insan həyatında rolu müxtəlifdir. Onlar canlıların nəfəs alması üçün havanı oksigenlə zənginləşdirir, güclü küləklərin qarşısını alırlar. İnsanlar qədim zamanlarda bitkilərlə qidalanırdılar. Sonra onlardan dərman və boyaq maddələri hazırlamaq, parça toxumaq və s. üçün də istifadə etməyə başladılar.

Zaman keçdikcə insanlar bitkiləri əkib-becərməyi öyrəndilər. Aloe, diffenbaxiya, kalla, qızılgül, nərgiz, kaktus, xlorofitium kimi bitkilərə evlərinizdə, məktəblərdə, küçə və parklarda çox rast gələ bilərsiniz. Bu bitkilər zövq almaq, xoş ətrinə görə, otağın havasının təmizlənməsi üçün yetişdirilir. Lakin unutmayın ki, bəzi **bəzək bitkilər**inə, məsələn, diffenbaxiyaya qulluq zamanı ehtiyatlı olmaq lazımdır. Çünki bu bitkinin yarpaqlarının əllə ovulması, qoparılması insanlar, o cümlədən də ev heyvanları üçün təhlükəlidir. Onlar dilin, dodaqların şişməsinə, nəfəs tıxanıqlığına səbəb ola bilər. Ona görə də diffenbaxiya bitkisinə toxunduqdan sonra əlləri mütləq yumaq lazımdır.

Müalicə məqsədilə istifadə olunan nanə, itburnu, çobanyastığı, kəklikotu kimi **dərman bitkiləri** də var. Tarlalarda bitən pambıq, günəbaxan kimi bitkilər **texniki bitkilər** adlandırılır. Pambıqdan lif, yağ alınır, parçaların toxunmasında, avtomobil təkərinin, kəmərlərin hazırlanmasında geniş istifadə edilir. Ondan alınan yağdan yemək məhsulları, həmçinin sabun, lak, spirt hazırlanır. Hələ qədim zamanlardan Azərbaycanda nar, tut, zəfəran, heyva bitkilərinin köklərindən **boyaq maddəsi** əldə edilib.

**Sizcə, bitkilərin insan həyatında başqa nə kimi rolu vardır?**

## Fəaliyyət

Bitkilərin insan həyatında roluna görə qruplaşdırılması.

Lazım olan şəkillər:




1 

Dərman bitkilərinin şəkillərini seçin və iş vərəqinə çəkib adlarını yazın.

2 


Bu bitkilərdən hansı xəstəliklərin müalicəsində istifadə edildiyini yazın.

3 

Texniki bitkilərin şəkillərini seçin və iş vərəqinə çəkib adlarını yazın.

4 


Bu bitkilərdən hansı məqsədlərlə istifadə edildiyini yanında qeyd edin.

5 

Boyaq məqsədilə istifadə edilən bitkilərin şəkillərini seçin və iş vərəqinə çəkib adlarını yazın.

6 


Bu boyalardan nə məqsədlə istifadə olunduğunu yazın.

1. Bitkiləri əhəmiyyətinə görə necə qruplaşdırdınız?
2. Bu qruplara tanıdığınız başqa hansı bitkilərin adlarını əlavə edərdiniz?
3. İnsan həyatında bitkilərin başqa hansı əhəmiyyəti var?



Qida məqsədilə istifadə olunan bitkilər hansılardır?

Hansı texniki bitkiləri tanıyırsınız? Onlardan hansı məqsədlərlə istifadə edilir?

Şəkillərdə verilənlərdən hansılar boyaq bitkisidir?




Həm bəzək, həm də dərman bitkisi kimi istifadə olunan bitkini seçin. Bu bitkinin müalicəvi əhəmiyyətini araşdırın.



kəklikotu nanə aloe pambıq heyva

Qruplaşmalarda yol verilən səhvləri müəyyən edin.

**a.** Qida əhəmiyyətli bitkilər
1, 2, 9, 10

**b.** Bəzək bitkiləri
4, 5, 7, 8

**c.** Texniki bitkilər
3, 5, 9

**d.** Dərman bitkiləri
6, 7, 8, 9

**e.** Boyaq kimi istifadə olunan bitkilər
1, 8



Açar sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

müalicə | qida | texniki | bəzək

- Kəklikotunun çiçəklərindən, itburnunun meyvələrindən insanlar ____ məqsədilə istifadə edirlər.
- Qarpız, yemiş, pomidor bitkilərindən ____ kimi istifadə olunur.
- Avtomobil təkərlərinin, kəmərlərin istehsalında pambıq lifindən istifadə edilir. Pambıq ____ bitkidir.
- Kalla, diffenbaxiya, kaktus bitkilərini insanlar zövq almaq üçün yetişdirir. Bu bitkilər ____ bitkiləridir.

Təbiətdə zəhərli bitkilərə də rast gəlinir. ***Quşüzümü, xanımotu*** bu bitkilərdəndir. Onlardan biri haqqında araşdırma aparın. İnsanı necə zəhərləyə biləcəyi, zəhərlənmənin əlamətləri haqqında məlumat toplayın.



Xanımotu



Quşüzümü




Şam meşələrinin havası insanların sağlamlığı üçün xeyirlidir. Şam ağaclarının xaric etdiyi xüsusi maddələr xəstəliktörədən mikroorqanizmləri məhv edir.




Konfet ağacının meyvəsi qənddən də şirindir və astma xəstələri üçün faydalıdır. Göyçayda, Lənkəranda yetişir.






İnsanlar bitkilərdən qidalanmaq, dərman və boyaq maddələri hazırlamaq, kağız, parça əldə etmək üçün istifadə edirlər.

# 3 Heyvanların həyatımızda rolu



Heyvanlar həm təbiətdə, həm də insan həyatında mühüm rol oynayırlar. Qədim insanlar heyvanları ovlayaraq ətindən **qida**, dərisindən **geyim**, sümüyündən **silah** kimi istifadə etmişlər. Zaman keçdikcə onların insan həyatındakı rolu dəyişmişdir. At, inək, qoyun və s. heyvanlar insanın həyatında əhəmiyyətli yer tutur. Qoyun və inəklərin əti, südü, yunu və dərisindən istifadə edilir. Bal arısının balı əvəzolunmaz qidadır, ondan müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur, **dərman** hazırlanır. İpəkqurdunun hazırladığı sapdan ipək parçalar toxunur.

Hörümçəklər uşaqlara çox qorxulu görünür. Bəzi ölkələrdə hörümçək sancması nəticəsində hər gün bir neçə nəfər həkimə müraciət etməli olur. Lakin bu **heyvanların faydası** da var. Məsələn, dünyanın ikinci böyük adası olan Yeni Qvineyada balıqçılar hörümçəklərin torundan balıq tutmaq üçün istifadə edirlər. Hörümçək torundan parçalar da toxunur.

Müxtəlif növ balıqlardan, çay xərçəngindən, yengəcdən, bəzi meduzalardan qida kimi istifadə edilir. Əqrəbin, ilanın zəhərindən dərman hazırlanır. Zəlilərdən bəzi xəstəliklərin müalicəsində istifadə edilir.

İnsan üçün əhəmiyyətli olan heyvanlar kimi, bir çox xəstəliklərə səbəb olan ziyanlı canlılar da var. Onlar insan orqanizmindəki qida maddələrindən, insanın qanından istifadə edirlər. Orqanları zədələyir, müxtəlif zəhərlənmələrə səbəb olur və xəstəliklər törədirlər. Məsələn, bəzi qurdlar insanda müxtəlif xəstəliklər yaradır. Qurd xəstəliklərindən qorunmaq üçün gigiyena qaydalarına əməl etmək lazımdır. Milçək və ağcaqanadlar qurd xəstəliklərinin yayılmasına səbəb olduğu üçün onlarla daim mübarizə aparılmalıdır.

**? Heyvanların insan həyatında başqa hansı rolunu müşahidə etmisiniz?**

## Fəaliyyət

Heyvanların insan həyatında rolunun müəyyənləşdirilməsi.

**Lazım olan şəkillər:**




**1** 

İnsan həyatı üçün faydalı olan heyvanların şəkillərini seçin və adlarını qeyd edin.

**2** 


Bu heyvanların insan həyatı üçün faydasını qeyd edin.

**3** 

İnsan həyatı üçün ziyanlı olan heyvanların şəkillərini seçin və adlarını qeyd edin.

**4** 


Şəkilləri seçin və bu heyvanların ziyanı haqqında biliklərinizi yazın.

**5** 


İnsan sağlamlığı üçün faydalı və ziyanlı olan heyvanların şəkillərini seçin və adlarını qeyd edin.

**6** 


Bu heyvanların faydalı və zərərli xüsusiyyətləri haqqında bildiklərinizi yazın.

1. Fəaliyyət əsasında hansı nəticələri əldə etdiniz?
2. Hansı heyvanları insan həyatı üçün ziyanlı, hansıları əhəmiyyətli hesab etdiniz? Nə üçün?
3. Heyvanlar olmasaydı, insanların həyatı necə olardı?



Şəkillərdəki heyvanlardan hansılarının insan həyatındakı rolunu faydalı hesab etmək olar? Bu faydalar nədən ibarətdir?



**T** Meşələrin qırılması həşəratların sayının azalmasına səbəb olur. Həşəratların insan həyatında roluna aid araşdırma aparın.

Şəkillərdəki heyvanların insan həyatı üçün hansı zərərli xüsusiyyətləri təsvir edilib?



**T** Heyvanların içərisindən faydalı hesab olunanları seçin, faydası haqqında araşdırma aparın.



Ev heyvanlarını bəsləməsi insanın həyatında necə rol oynayır? Heyvanların bəslənməsində hansı qaydalara əməl olunmalıdır?



Ev heyvanlarının bəslənilməsi zamanı əməl etməli olduğunuz qaydalar barədə məlumat vərəqi hazırlayın və məktəbdə paylayın.

Sizcə, zəhərli hörümçəklərin insanı sancması nələrə səbəb olur? Hörümçək sancması zamanı insana necə yardım edilməlidir?



Azərbaycanda boz, sarı, qara əqrəb geniş yayılıb. Bu əqrəblərə harada rast gəlmək olar? Əqrəb sancmasının insana təsiri haqqında məlumat toplayın. Bu zaman insana necə yardım olunmalıdır?



boz əqrəb



sarı əqrəb



qara əqrəb

Səhv fikiri seçin. Seçiminizi əsaslandırın.

- İpəkqurdunun hazırladığı sapdan parça toxunur.
- Zəlilərin zəhərindən dərman hazırlanır.
- Milçəklər qurd xəstəliklərinin yayılmasına səbəb olur.
- Hörümçəklər bitki kökləri ilə qidalanaraq onları məhv edir.
- Çəyirtkələr bitkiçiliyə ziyan vurur.




ABŞ alimləri insan ölümünə səbəb olan ən təhlükəli canlıları açıqlayıblar. Sən demə, ən təhlükəli heyvanlardan biri ağcaqanaddır. Ona görə də onlarla daim mübarizə aparılmalıdır.




Çəyirtkələr və əksər böcəklər əkin sahələrinə ziyan vurur. Lakin Qədim Misirdə əkin sahələrinin əsas ziyanvericisi begemotlar hesab olunurdu.




Təbiətdəki heyvanlardan qidalanmaq, dərman və geyim hazırlamaq üçün istifadə edilir. İnsana zərər verən heyvanlar da var.

Verilən fikirləri həşəratların faydası və ziyanı olaraq qruplaşdırın.

**a.** Həşəratların faydası ______

**b.** Həşəratların ziyanı ______

1



Parabüzən bitki zərərvericilərini məhv edir. Onların sayını azaldır.

2

Qarışqa torpaqda yollar açır, onu yumşaldır.



3



Danadişi torpaqda yaşayır və bitki kökləri ilə qidalanır.

4

Çəyirtkə bitkilərin müxtəlif hissələri ilə qidalanır.



# 4 İnsan və mikroorqanizmlər



Çox kiçikölçülü bakteriyalar, göbələklər **mikroorqanizmlərə** aid edilir. Onlar bizi əhatə edən hər yerdə: insan orqanizmində, qida məhsullarının üzərində və təbiətdə yaşayırlar. Onlardan tibdə də istifadə olunur.

Mikroorqanizmləri iki cür qruplaşdıra bilərik: **ziyanlı və faydalı**. Süd məhsullarının – qatıq və pendirin hazırlanmasında, spirtin alınmasında mikroorqanizmlərdən istifadə olunur. Onlara insan orqanizmində də rast gəlinir. Bəzi mikroorqanizmlər insanın bağırsağında yaşayır və qidanın həzm olunmasına kömək edir. Onlar olmazsa, insan orqanizmindəki proseslər düzgün getməz, orqanizm zəifləyər və bu, xəstəliklərin yaranmasına gətirib çıxara bilər.

Bir qrup mikroorqanizmlərdən **müxtəlif xəstəliklərin müalicəsində istifadə etmək** üçün dərman hazırlanır. Mikroorqanizmlər içməli suyun təmizlənməsində, torpağın əmələ gəlməsində də iştirak edir. Lakin mikroorqanizmlərin insan üçün faydası kimi, ziyanı da vardır.

Bəzi mikroorqanizmlər qida maddələrini istifadə edilə bilməyəcək hala salır. Yəqin ki, meyvələrin, çörəyin çox saxlandığı zaman üzərində yaşıl, qara kif örtüyünün əmələ gəldiyini görmüşsünüz. Bunu törədən kif göbələkləridir. Bu cür qida məhsullarından istifadə etmək olmaz. İnsanlar alma, armud, xurma, gavalı və s. kimi meyvələri xarab olmaqdan qorumaq üçün qurudur, bəzi tərəvəzləri duza, turşuya qoyurlar.

Mikroorqanizmlərin bəziləri bitki və heyvanlarda, insanda **xəstəliklərə səbəb olur**. İnsanda vərəm, angina, keçəllik kimi xəstəlikləri törədən məhz mikroorqanizmlərdir.

**Mikroorqanizmlərin insan həyatında başqa nə kimi rolu vardır?**

# Təcrübə

Mikroorqanizmlərin insan həyatındakı rolu.

Fəaliyyət üçün lazımdır:






Şüşə qaba ilıq su əlavə edin və içərisinə 4 ədəd qənd ataraq qarışdırın.



Alınan qarışımın içərisinə bir az quru maya əlavə edin.



4-5 dəqiqəlik isti yerə qoyun, sonra yaranan vəziyyəti müşahidə edərək nəticələri qeyd dəftərinə yazın.



Eyni prosesi bu dəfə plastik qabda edin.



Plastik qabın başına rezin şar keçirin.



Baş verənləri müşahidə edərək nəticəni qeyd dəftərinə yazın.

1. Sizcə, stəkandakı qarışımın köpməsinin səbəbi nədir?
2. Rezin şarın hava ilə dolması nəyi göstərir?
3. Xəmirin şişməsi ilə bu proses arasında hansı əlaqə var?
4. Sizcə, bu mikroorqanizmlər faydalı, yoxsa ziyanlıdır? Nə üçün belə düşünürsünüz?



Hansı şəkillərdə mikroorqanizmlərin faydası təsvir edilib?

1


2



3


Çörək, meyvə və digər qida məhsulları üzərində mikroorqanizmlərin zərərli təsiri müşahidə edilərsə, necə davranmaq lazımdır? Səbəbini necə izah edərsiniz?

Heyvanlar üçün tədarük edilən otun qurudulmasının səbəbi nədir? Fikrinizi əsaslandırın.

Mikroorqanizmlər insanda hansı xəstəliklərə səbəb olur?

Uyğunluğu müəyyən edin:

| Mikroorqanizmlərin ziyanı | Mikroorqanizmlərin faydası |
|---|---|
| a) torpağın əmələ gəlməsi | e) balıqçı torlarının çürüməsi |
| b) dərman hazırlanması | f) qidanın bağırsaqda həzmi |
| c) qida maddələrinin kiflənməsi | g) süd məhsullarının alınması |
| d) ölmüş heyvanların çürüməsi | h) çörəyin kiflənməsi |

Çoxunuz payızın sonunda meşədə, parkda ağacların tökülmüş yarpaqlarının, qırılmış budaqlarının yerdə qalın bir təbəqə əmələ gətirdiyini görmüşsünüz. Bir müddətdən sonra onlardan əsər-əlamət qalmır. Sizcə, buna səbəb nədir?



**Fakt**

Cənubi koreyalı alimlər müəyyən ediblər ki, zərərli mikroorqanizmlərə ən çox supermarketlərdə alış-veriş arabalarının tutacaqlarında rast gəlinir. Kompüter siçanı da bu baxımdan təhlükəlidir.



**Maraqlı**

Yağışdan sonra torpaqdan xüsusi qoxu gəldiyini, yəqin ki, hiss etmişsiniz. İnsanlar bu qoxunu çox sevirlər. Əslində, bu qoxu torpaq səthində yaşayan mikroorqanizmlər səbəbindən yaranır.



**Nəticə**

Mikroorqanizmlər insan həyatında müxtəlif cür rol oynayır. Onlar həm xeyirli, həm də zərərli ola, xəstəlik törədə bilirlər.

Açar sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

vərəm   Kif göbələyi   faydalı

- Mikroorqanizmlər insanda ______ xəstəliyi törədir.
- Qida maddələrini istifadəyə yararsız hala salan ______.
- Süd məhsullarının hazırlanmasında mikroorqanizmlərdən istifadə onların ______ xüsusiyyətinə aiddir.

İnsanda keçəllik xəstəliyinin yaranmasının səbəblərindən biri də göbələklərdir. Bu xəstəliyin insana necə yoluxduğuna aid məlumat toplayın.

Doğru və yanlış fikirləri müəyyən edin.

1. Mikroorqanizmlər bitki qalıqlarını, heyvan cəsədlərini çürüdür və bu onların faydasını göstərir.
2. Mikroorqanizmlər yalnız insanda xəstəliklərə səbəb olur.
3. Müxtəlif ərzaqları bakteriyalardan qorumaq üçün onları qurutmaq lazımdır.

# 5 İnsana təsir edən amillər



Ətrafda baş verən hadisələr, başqa insanlarla münasibətlərimiz, əhvali-ruhiyyəmiz sağlamlığımıza ciddi təsir göstərir. Məsələn, bayram şənliklərində iştirak etmək, təhsildə yüksək nəticələr qazanmaq, dostlarla və valideynlərlə birgə vaxt keçirmək **uşaqların özünü xoşbəxt hiss etməsinə** səbəb olur. Şəkil çəkmək, cizgi filmlərini izləmək, əylənmək də gözəl duyğular yaradır. Bununla yanaşı, insanları məyus edən, həyəcanlandıran, əsəbiləşdirən hadisələr də baş verir. Məsələn, təhsildə arzulanan nəticənin əldə olunmaması, dostlar arasında münasibətlərin pozulması, yaşanılan evin, mühitin dəyişdirilməsi əsəb gərginliyi yarada bilər. Orqanizm bu cür hadisələr qarşısında gərginlik keçirir.

**Əsəb və gərginliyin** səbəblərindən biri də oturaq həyat tərzidir. İnsan hərəkətdə olarkən, oyun oynayarkən, söhbət edərkən özünü daha xoşbəxt hiss edir. Televizor, kompüter qarşısında uzun müddət oturmaq, telefonda oyun oynamaq isə gərginlik yaradır.

Unutmaq olmaz ki, əsəb və gərginlik insanın yalnız hansısa orqanına deyil, **bütün bədəninə təsir göstərir** və onun müqavimətini azaldır. Ürək və böyrəklərin işini pozur. Ürək döyüntüsünün artmasına, yorğunluğa, yuxunun və iştahanın pozulmasına, baş və mədə ağrılarına və s. səbəb olur.

İnsan əsəbi və gərgin anlarda özünü ələ almağı bacarmalı və bu vəziyyətdən çıxmaq üçün necə davranmaq lazım gəldiyini bilməlidir. Bunun üçün təmiz havada gəzmək, düzgün qidalanmaq, idmanla məşğul olmaq, münaqişələrdən uzaq durmaq lazımdır.

**?** **Sizcə, əsəbi və gərgin olduğunuz zaman necə davranmalı, sağlamlığınızı necə qorumalısınız?**

## Fəaliyyət

Əsəbi gərginliyin ilk əlamətləri. Bu hallarda vəziyyətdən çıxmaq üçün atılan addımlar.

Lazım olan şəkillər:




1



İnsanın əsəblərinin gərgin olduğunu ifadə edən xüsusiyyətləri müəyyən edin və yazın.

4




Əsəbi gərginlik anında ilk etməli olduğunuz hərəkətləri qeyd edin.

2



Bu xüsusiyyətlərə uyğun şəkillər çəkin.

5



Buna uyğun şəkillər çəkin.

3




Əsəbi gərginliyə səbəb ola biləcək hadisələri qeyd edin.

6



Seçilən vasitələrdən hansının insan sağlamlığına ziyan vura biləcəyini müəyyən edin və yazın.

1. Sizcə, əsəb gərginliyinə ən çox hansı hadisələr səbəb olur?
2. Belə vəziyyətdə, ilk növbədə, necə davranırsınız?
3. Sizcə, insanın özünü əsəb gərginliyindən çıxarması üçün ən effektli yol nədir?



Aşağıda verilənlərdən hansı insanda gərginliyə səbəb ola bilər?

1

2

3

4


Yoldaşlarınızla oyun zamanı hansı davranışlar əsəb gərginliyinə səbəb ola bilər?

Şəkillərdən hansında insanı gərginlikdən azad edəcək vəziyyət təsvir edilib? Nə üçün belə hesab edirsiniz?

1

2

3

4


Aşağıda verilənlərdən hansı şagirdlərdə əsəb gərginliyi yarada bilər? Səbəbini izah edin.

- ★ Öz görünüşündən narazılıq
- ★ Ailədəki dava-dalaş
- ★ Məktəbdə yüksək nəticələrin əldə edilməsi
- ★ Təhlükəni əks etdirən film izləmək
- ★ Oyun oynamaq

Sizcə, nə üçün insanlara gərgin iş və dərs həftəsindən sonra təbiət qoynunda istirahət etmək tövsiyə olunur?

T Təbiətdə vaxt keçirməyin insan sağlamlığına təsirini araşdırın.




Kompüter oyunları 5 duyğu orqanımıza əsaslı təsir edir. Uzun zaman telefonda, kompüterdə oyun oynamaq əsəbilik yaradır. Hətta kompüter oyunlarından və internetdən asılılıq da yarana bilər.




Alimlər hesab edirlər ki, həyəcanlı anlar keçirməyin bəzən insana xeyiri də ola bilər. Çünki stres bəzi insanlarda beyinin inkişafını yaxşılaşdırır. Amma bu hamıya aid deyil.




İnsan müxtəlif səbəblərdən əsəb gərginliyi keçirə bilər. Lakin hər zaman özünü ələ almağı, dərindən nəfəs alaraq sakitləşməyi bacarmaq lazımdır.

**T** Düzgün fikirləri müəyyən edin.

- Vitamin əskikliyi əsəb gərginliyinə səbəb olur.
- Yuxusuzluq, uzun müddət elektron cihazlardan istifadə əsəb gərginliyi yaradır.
- Əsəb və gərginlik diqqətin zəifləməsinə təsir etmir.

**T** Gərginlik hallarında orqanizmə kömək etmək üçün verilənləri “olar” və “olmaz” adı altında qruplaşdırın.

1. Yuxu
2. İsti vanna qəbul etmək
3. Dadlı yemək yemək
4. Yüksək səslə musiqi dinləmək
5. Dostlarla söhbət etmək
6. Dərindən nəfəs almaq
7. İdmanla məşğul olmaq
8. Gəzintiyə çıxmaq
9. Gərginlik yaradan səbəbin ünvanına deyinmək
10. Kompüterdə oyun oynamaq

**Y** Gərginlikdən uzaq olmaq üçün:

★ yaxşı dincəlin;
★ fiziki aktivliyinizi artırın;
★ dostlarınız və ailə üzvlərinizlə çox vaxt keçirin;
★ aqressivlik yaradan oyunlar oynamayın;
★ tez-tez gülümsəyin.

# 6 Sağlamlığımızın qayğısına qalaq



İnsanlar hər zaman öz orqanizmlərini öyrənmiş və sağlamlıqlarının qayğısına qalmışlar.

**Sağlam həyat tərzi** dedikdə insanın gümrah yaşaması və xəstəliklərdən uzaq olması nəzərdə tutulur. Sağlamlığın qayğısına qalıb xəstələnməmək orqanizmi müalicə etməkdən daha yaxşıdır.

İnsan sağlam qalmaq üçün gün rejimini düzgün qurmalı, düzgün qidalanmalı, zərərli vərdişlərdən uzaq olmalıdır. Gün rejiminə əməl etmək vacibdir. Belə olduqda insan intizamlı olmağı, işlərini, vəzifələrini vaxtında yerinə yetirməyi öyrənir. Bu isə əlavə gərginliyin yaşanmasına mane olur. İdmanla məşğul olmaq, hava şəraitinə uyğun geyinmək, həmyaşıdlarla daim xoş ünsiyyət saxlamaq da sağlamlığa müsbət təsir göstərir.

**Sağlam qidalanma** və **yuxu rejiminə əməl etmək** məktəblilər üçün çox vacibdir. Bu qaydalara əməl edilmədikdə diqqətin itməsi, bədən çəkisinin normadan çox və ya az olması, zəiflik və həddindən artıq yorğunluq yaranır. Yaddaşın və düşünmə qabiliyyətinin zəifləməsi baş verir. Ona görə də həkimlər məktəblilərin axşam saat 21:00-dan gec yatmamasını, sağlam qidalanmasını məsləhət görürlər.

Kompüterlərdən həm bilikləri artırmaq, həm də əyləncə məqsədilə istifadə olunur. Lakin uzun müddət kompüterdən istifadə etmək insanın sağlamlığına mənfi təsir göstərir. Kürək və baş ağrıları, yuxu pozğunluğu və gərginlik yaradır. Görmə qabiliyyətini zəiflədir. Kompüterdə işləyərkən ekran gözlərinizdən 55–65 sm aralı olmalıdır. Kompüter olan otaqda və zallarda hava tez-tez dəyişdirilməlidir.

**?** **Sizcə, insan sağlamlığına ziyan vuran başqa hansı vərdişlər var və onlardan necə azad ola bilərik?**

## Fəaliyyət

Sağlamlığı qorumağın yolları. Sağlamlığa ziyan vuran vərdişlər.

Lazım olan şəkillər:


fastfudla qidalanma


xəstələnən uşaq


sağlam uşaq


yuxu rejiminin pozulması


pis vərdişlər


gigiyena qaydalarını pozma


düzgün qidalanma

**1**



Kağızın mərkəzində **sağlam görünüşlü uşaq** şəkli yapışdırın.

**2**




Sağlamlığı qorumaq üçün vacib olan şərtləri yazın.

**3**



Mərkəzdəki şəklin ətrafına şərtləri ifadə edən şəkilləri çəkin.

**4**



Kağızın mərkəzində **xəstə görünən** uşaq şəkli yapışdırın.

**5**




İnsan sağlamlığına mənfi təsir edən amilləri yazın.

**6**



Bu amilləri ifadə edən şəkilləri çəkin.

1. Sizcə, sağlam olmaq üçün hansı hərəkətləri vərdişə çevirmək lazımdır?
2. Pis vərdişlərdən qorunmaq üçün siz nə edirsiniz?
3. Hansı vərdişləri özünüzdə formalaşdırmaq istərdiniz?



Sizcə, nə üçün insan öz sağlamlığını qorumalıdır?

Aşağıda verilən hərəkətlərdən hansı sağlamlığımızı qorumağa kömək edəcək?

1. Yeməkdən əvvəl və sonra əlləri yumaq
2. Uzun müddət kompüterdən istifadə etmək
3. Yalnız meyvə və tərəvəzlə qidalanmaq
4. Oturaq həyat tərzi keçirmək

Nə üçün yuxu rejimi sağlam həyat tərzinin şərtlərindən hesab edilir?

İdmanla məşğul olmaq sağlamlığımıza necə təsir göstərir? Fikrinizi nümunələrlə əsaslandırın.

Hansı şəkillərdə müasir dövrümüzün problemləri öz əksini tapıb? Fikrinizi əsaslandırın.







Uyğunluğu müəyyən edin:

zərərli vərdiş

sağlam vərdiş

1. İdmanla məşğul oluram.
2. Təmiz havada gəzirəm.
3. Yüksək səslə musiqi dinləyirəm.
4. Gec yatıb, tez dururam.
5. Kompüterdə saatlarla oyun oynayıram.
6. Təmiz su içirəm.
7. Meyvə-tərəvəz xoşlayıram və yeyirəm.











Uşaqlardan hansı sağlamlığının qeydinə qalır? Bəs hansı xəstəliyin yayılmasına səbəb ola bilər?



Yeməkdən əvvəl və sonra əllərimi yuyuram.

Havaya uyğun geyinirəm.



Xəstələnəndə qoruyucu maska taxmıram.

Öskürüb və asqıran zaman ağzımı və burnumu tuturam.

Mətni oxuyun və əsas fikri müəyyən edin.

**Açar sözlər:** su | qida | vitamin

Meyvə və tərəvəzlər ____ zəngindir. Onlar orqanizmin yoluxucu xəstəliklərdən qorunmasını təmin edir. ____ çatışmadıqda insanda yorğunluq, müxtəlif xəstəliklər yaranır. Gözlər zəif görür, diş ətində, ağızda yaralar əmələ gəlir.

Təqdim edilən mövzulardan birini seçin və təqdimat hazırlayın:

1. Həmyaşıdlarla ünsiyyət mənəvi sağlamlıqdır.
2. Zərərli vərdişlərdən uzaq olmaqla sağlamlığın qorunması
3. İdmanla məşğul olmaqla sağlamlığın qorunması
4. Hava şəraitinə uyğun geyinməyin sağlamlığa təsiri

İnsan oturaq həyat tərzi keçirdikdə beyinin fəaliyyəti zəifləyir. Çünki bu zaman qana oksigen az daxil olur. Ona görə də tez-tez təmiz hava almağa və hərəkətdə olmağa çalışın.



**Fakt**

Alimlərin müəyyən etdiyinə görə, oğlanların sağlam olması üçün qızlardan 3–5 dəfə daha çox hərəkətə ehtiyacı var.



**Maraqlı**

İnsanın ünsiyyətdən qaçaraq təklikdə yaşaması immuniteti zəiflədir. Dostlarla ünsiyyət isə gücləndirir. Hər zaman hərəkətli, enerjili və xoşbəxt insanlar soyuqdəymə və qripə belə daha az yoluxurlar.



**Nəticə**

İnsan sağlam olduqda məqsədlərinə çata, özünə və cəmiyyətə xeyirli ola bilir. Bunun üçün oturaq həyat tərzi, yuxusuzluq və s. pis vərdişlərdən uzaq durmaq lazımdır.

# 7 Mühit amillərinin canlılara təsiri



İşıq, temperatur, hava, rütubət cansız təbiət amilləridir. Bu amillərin təbiətdəki canlılara təsiri müxtəlifdir. **Temperatur** canlıların böyüməsinə, inkişafına, çoxalmasına, ömrünün uzanmasına təsir göstərir. Əksər canlılar 40–45° C temperatura dözə bilir. İnsan üçün temperaturun 18–20° C olması əlverişli hesab edilir. Bəzi bakteriyalar üçün isə bu temperatur 120° C-yə qədərdir.

Yaz-yay aylarında kərtənkələlər, qurbağalar aktivləşir. Havanın temperaturu aşağı düşdükdə isə onlar zəif qidalanır, çoxalmırlar. Havanın temperaturunun yüksəlməsi cücülərə mənfi təsir göstərir. Bitki toxumlarının cücərməsi də temperaturdan asılıdır. Buğda toxumları 2° C temperaturda, qarpız toxumları isə 15° C temperaturda cücərir. Bütün bunlar onu göstərir ki, ilin fəsillərindən, yaşayış yerindən asılı olaraq temperaturun dəyişməsi canlıların həyat fəaliyyətinə təsir edir.

**İşıq** bitkilərin qidalanması, bəzi heyvanların fəallığı üçün vacib amildir. Yer üzünün əsas işıq mənbəyi Günəşdir. Günəş şüalarının bir qismi canlılar üçün öldürücü təsirə malikdir, yerə gəlib çatmır. Meşələrdə bitkilər işığa olan ehtiyaclarına görə yerləşir. Yuxarıya doğru uzanan işıqsevən bitkilərdir, aşağıda isə kölgəyə davamlı bitkilər bitir. Bitki və heyvanlarda gecə və gündüz həyat tərzinə uyğunlaşma da işıqlanma ilə əlaqədardır.

Bitki və heyvanların çoxu rütubətsevəndir. Qurbağaların çoxalması yalnız su mühitində gedir. **Rütubətin** çatışmaması bəzi heyvanların gecə həyat tərzinə keçməsinə, səhra gəmiricilərinin, dəvələrin bədənində piyin toplanmasına, bir qrup bitkilərin yayda yarpaqlarını tökməsinə, tısbağaların yay yuxusuna getməsinə səbəb olur.

Göründüyü kimi, bütün canlıların onlara təsir göstərən amillərə qarşı dözümlülük həddi vardır.

**Sizcə, mühit amilləri canlıların qruplaşmasına necə təsir göstərir?**

## Fəaliyyət

Canlıların yaşadıqları ərazilərə uyğun qruplaşdırılması.

Lazım olan şəkillər:




**1**



Şəkillərdəki canlıları yaşadıqları ərazilərə görə qruplaşdırın.

**2**




Qruplaşmaları adlandırın.

**3**




Bu qruplaşmadakı canlılara xas xüsusiyyətləri müzakirə edin və yazın.

**4**




Cansız təbiət amillərinin onlara necə təsir göstərdiyini müzakirə edin və qənaətlərinizi yazın.

**5**




Bu canlıların ayrı-ayrı qruplarda yayılmasının əsas səbəbini müəyyən edin və yazın.

**6**



Nəticəni müzakirə edin.

1. Canlılar hansı qruplarda qruplaşdırıldı?
2. Belə bir bölgünün aparılmasında hansı amillər rol oynadı?



Nə üçün səhralarda bitkilərə az rast gəlinir? Səhra bitkiləri hansı xüsusiyyətlərə malik olurlar?



Mühit amillərinin təsirindən bitkilərin bəzilərində yarpaqlar tikana çevrilmişdir. Sizcə, buna səbəb hansı cansız amildir?

Meşədə bitkilərin yerləşməsinə diqqət yetirin. Sizcə, hansı bitki kölgəyə daha çox davamlıdır? Səbəbini araşdırın.




Bəzi bitkilərin qızmar yay aylarında yarpaqlarını tökməsinin səbəbi nədir?



Şam ağacının çətiri yuxarıdadır. Onun bu xüsusiyyətinə uyğun gələn fikri müəyyən edin.



Səhv fikirləri seçin.

- Təbiətdə canlı və cansız amillər bir-biri ilə əlaqəlidir.
- Bütün bitki toxumlarının cücərməsi üçün eyni temperatura ehtiyac vardır.
- Torpaqda yaşayan canlılar üçün havanın temperaturu rol oynamır.
- Bütün bitkilər torpaqda suyun çatışmazlığına dözümlüdür.

Mətnə əsasən canlılara hansı mühit amillərinin təsir etdiyini müəyyən edin.



Quşların əksəriyyəti yazda bala çıxarır. Yay aylarında balalar böyüyür və müstəqil yaşamağa başlayır. Payıza doğru isə quşların bir çoxu yuvalama yerlərini tərk edərək cənuba – isti ölkələrə köçür.

Mətnə əsasən canlılara hansı mühit amillərinin təsir etdiyini müəyyən edin.

Kirpilər gecə, dəvəquşular isə gündüz həyat tərzi keçirirlər. Temperatur 4 dərəcədən aşağı düşdükdə kirpilər qış yuxusuna gedir. Tısbağalar isə su qıtlığı səbəbindən yay yuxusuna gedir.

Göl dayaz olduğuna görə Günəş şüalarının təsirindən daha yaxşı qızır. Bu cür şəraitdə bitkilər də yaxşı inkişaf edir. Su heyvanlarının inkişafı sürətlənir. Göldə digər heyvanlar üçün də yem bolluğu yaranır.






Temperaturdan asılı olaraq heyvanların aktivlik dövrü dəyişir. Avropanın cənubundakı kərtənkələlər 9 ay, şimaldakılar isə daha az müddət aktiv olur.




Timsahlar və tısbağalar yumurtalarını torpağın günəş enerjisi ilə yaxşı isinən yerlərinə basdırır.








Canlıların yaşadıqları mühit amilləri onların yaşamasına, inkişafına mühüm təsir göstərir. Bu amillər heyvanların mühitə uyğun qruplaşmasında rol oynayır.

# 8 Ətraf mühitin qorunması



Qədim insan qidalanmaq, yaşamaq, özünü təmin etmək üçün hər zaman təbiətdən yararlanmışdır. Lakin zaman keçdikcə insan və təbiət arasında münasibət dəyişib. Böyük şəhərlər tikilib, zavodlar, fabriklər işə salınıb. Elmin, texnikanın inkişafı insanın həyatına müsbət təsir göstərsə də, bu, çox vaxt təbiətə, təbiətdəki canlılara ziyan vurub. Zavodlar, fabriklər, avtomobillər, təyyarələr havanı zərərli qazlarla çirkləndirir. Faydalı qazıntıların çıxarılması çəmənliklərin, meşələrin azalmasına səbəb olur. Çirklənmiş çayların suyunun dənizə tökülməsi nəticəsində oradakı canlılar zərər görür.

Bəzən insanlar bitkilərə zərər verən həşəratları məhv etmək üçün kimyəvi maddələrdən istifadə edirlər. Bu maddələr onları məhv etməklə bərabər, digər canlılara da mənfi təsir göstərir. Nəticədə faydalı cücülər, onlarla qidalanan quşlar da zəhərlənir. Yağış yağdıqda isə zəhərli maddələr sulara qarışaraq çaylara, dənizlərə tökülür və oradakı canlılara təsir göstərir. Bu maddələr su ilə qidalanan bitki, meyvə, tərəvəz və otla heyvanların ətinə, südünə keçir. Nəticədə heyvan mənşəli qidalarla qidalanan insanların bədəninə keçərək orada toplanır və xəstəliklərə səbəb olur.

**? Ətraf mühitin qorunması üçün hansı yollardan istifadə edilə bilər?**

# Fəaliyyət

Yaşadığımız ərazinin təmizliyinin qayğısına qalmaq üçün vasitələr.

**Lazım olan şəkillər:**


A4 kağız


çirkab sular


hava çirklənməsi


rəngli qələm


torpaq çirklənməsi


kley


çirkab sular

1. 

Yaşadığınız ərazidə olan çirklənmə mənbələrini müəyyən edin.

2. 

Müxtəlif mənbələrdən istifadə etməklə ərazi haqqında topladığınız məlumatı iş vərəqinə qeyd edin.

3. 
Çirklənməni sübut edən xüsusiyyətləri iş vərəqinə qeyd edin.

4. 

Çirklənmənin dənizdə və dəniz ətrafında yaşayan canlılara verdiyi ziyanları qeyd edin və şəkillərlə əsaslandırın.

5. 

Çirklənmənin səbəbi və aradan qaldırılması yolları ilə bağlı müzakirələrdən çıxarılan nəticələri qeyd edin.

6. 
Hazırladığınız təkliflər vərəqini məktəbdə və yaşadığınız ərazidə paylayın.

1. Sizcə, çirklənmənin qarşısını almaq üçün hansı vasitə daha yararlı ola bilər?
2. İnsanlar bu çirklənmənin azaldılmasında necə iştirak edə bilərlər?



Havanın çirklənməsinə səbəb olan hansı amillər haqqında məlumatınız var?

Hansı şəkillərdə torpağın çirklənməsi təsvir edilib?



















Sizcə, nə üçün torpağın, havanın, suyun çirklənməsi yalnız bir şəhərin, ölkənin deyil, bütün dünyanın problemi hesab edilir?

Məktəbiniz və yaşadığınız evin ərazisində ətraf mühitin qorunması üçün hansı işlər görülür?

Ətraf mühitin təmizlənməsi üçün aşağıdakı fəaliyyətlərlə məqsədlər arasında uyğunluğu müəyyən edin.

Elektriklə işləyən maşınların istehsalı 1

Plastik qabların toplanması 2

Kağızın toplanması 3

Zibillərin çeşidlənməsi 4

təkrar istehsal məqsədilə

havanın təmizliyi üçün

Xəzər beş ölkə ilə əhatə olunub. Onun çirklənməsində bu ölkələrin hər birinin rolu vardır. Dünyada balıq sərvətinə görə şöhrət qazanmış Xəzər dənizi neft və çirkab sularla çirkləndirilir. Baş verən ekoloji dəyişikliklərin canlılara təsirini araşdırın.

| Xəzər dənizində baş verən ekoloji dəyişikliklər | Canlılara təsiri |
| --- | --- |
| Suyun neftlə çirklənməsi | |
| Çirkab suların dənizə axıdılması | |

Təkrar emal üçün nəzərdə tutulan tullantıların toplandığı qutuları rənginə və təyinatına görə müəyyənləşdirin. Siz daha hansı tullantıların toplanmasını təklif edərdiniz?






Zibillərin çeşidlənərək toplanması lazımsız kağızların yeni dəftərlərə, köhnə plastik butulkaların isə rəngarəng uşaq oyuncaqlarına çevrilməsinə səbəb ola bilər.




Dünyada ən geniş yayılan ekoloji problem karbon qazının miqdarının artmasıdır. Bu proses "karbon izi" adı ilə də araşdırılır.






Texnikanın inkişafının təbiətə müəyyən ziyanı olsa da, onun qarşısı alına bilməz. Təbiəti qorumağın ən doğru yolu onu çirkləndirməmək və təkrar emaldır.

# 9 İnsan sosial varlıq kimi



Bütün canlıların nəfəs almaq, su içmək, qidalanmaq kimi təbii ehtiyacları vardır. Biz bu xüsusiyyətlərlə birlikdə doğulmuşuq və onlar bizim təbiətin bir parçası olduğumuzu göstərir. İnsan **düşünmək**, **fikir yürütmək**, **nitq bacarığı** ilə digər canlılardan fərqlənir. O, əməklə məşğul olur. Müəyyən inanclara, davranış mədəniyyətinə sahibdir. Bütün bu bacarıqlar isə yalnız **ünsiyyət** nəticəsində əldə edilir. Əgər balaca bir uşaq başqaları ilə ünsiyyətdə olmazsa, danışmağı öyrənə bilməz. Deməli, nitq bacarığına sahib olmaz. Ünsiyyət qurmadan təhsil almaq, davranış qaydalarını öyrənmək də mümkün deyil.

Ünsiyyət ilk dəfə ailədə qurulur. Biz anaya, ataya, Vətənə, insana sevgini ailədə öyrənirik. Qayğını, diqqəti, mehribanlığı, birgə əməkdaşlıq bacarığını mənimsəyirik. Cəmiyyət fərdlərdən, ailələrdən və kollektivlərdən ibarət olduğu üçün ailədə əsası qoyulan bu bacarıqlara sonralar təhsil aldığımız və çalışdığımız kollektivlərdə, cəmiyyətdə ehtiyacımız olur. Onlar bizim kollektivdə və cəmiyyətdəki davranışlarımıza təsir göstərir.

İnsan bir **fərd** olaraq əvvəlcə **ailədə**, daha sonra isə **kollektivdə** və **cəmiyyətdə** başqaları ilə ünsiyyət nəticəsində ictimai davranış qaydalarını və dəyərləri mənimsəyir. Bu yolla inkişaf edir, formalaşır və nəticədə, **sosial varlığa** çevrilir.

Ailələr, onların yetişdirdiyi fərdlər, bu fərdlərin qoşulduqları kollektivlər cəmiyyəti təşkil edir. Deməli, cəmiyyətin uğurla inkişaf etməsi, insanlar arasında münasibətlərin daha dözümlü və yaxşı olması fərdlərdən, ailələrdən və kollektivdən asılıdır.

**?** **Sizcə, insanlar hansı bacarıqları və xüsusiyyətləri ilə cəmiyyətin formalaşmasına müsbət təsir göstərirlər?**

# Fəaliyyət

İnsan təbiətin ayrılmaz hissəsi kimi. İnsan cəmiyyətin tərkib hissəsi kimi.

Lazım olan şəkillər:






Şəkillərdə insanlara aid hansı bacarıqların ifadə edildiyini müəyyənləşdirin və şəkilləri adlandırın.




Bu bacarıqlardan hansının ünsiyyət vasitəsilə qazanıldığını müəyyənləşdirin və yazın.




Ünsiyyət vasitəsilə qazanılan bacarıqlara uyğun şəkilləri seçin və yapışdırın.




Bu bacarıqlardan hansılar təbiətdən qazandığımızı müəyyənləşdirin və yazın.




Bu bacarıqlara uyğun şəkilləri seçin və yapışdırın.




Nəticəni müzakirə edin və ümumiləşdirin.

1. Bacarıqlardan hansının formalaşmasında ünsiyyət və başqa insanlar rol oynayır?
2. Hansı bacarıq üçün ünsiyyətə ehtiyacımız yoxdur?



Şəkillərdən hansılarda canlıların bioloji varlıq olduğunu göstərən xüsusiyyətlər təsvir edilib? Bu xüsusiyyətləri adlandırın.







İnsan digər canlılarla hansı eyni xüsusiyyətlərə malikdir?

1) Özünə uyğun mühit yaratmağa çalışır.
2) Qidalanır, böyüyür.
3) Danışmağı və düşünməyi bacarır.
4) Yaşamaq üçün suya və havaya ehtiyacı var.

Şəkillərdən hansında insanın bioloji varlıq olduğunu göstərən xüsusiyyətlər təsvir edilib? Nə üçün belə düşünürsünüz?

1



2



3



4



İnsanın sosial varlığa çevrilməsi üçün ilk bacarıqları hansılardır və onlar harada əldə olunur?

Qeyd edilənlərdən hansı insanın ünsiyyət vasitəsilə qazandığı ilk bacarıqdır? Fikrinizi əsaslandırın.

a) yatmaq
b) su içmək
c) şahmat oynamaq
d) qidalanmaq
e) danışmaq

Aşağıdakılardan hansı insanın sosial varlıq olduğunu göstərir?

**a.** insanın bədən quruluşu
**b.** düşünmə bacarığı və nitqi
**c.** qidalanması, yatması və hərəkət etməsi

“Mauqli” filminə baxın və filmin baş qəhrəmanının meşədə qazandığı bacarıqlardan hansını cəmiyyətdə qazana biləcəyini müzakirə edin.



*Sizcə, nə üçün Mauqli danışmağı öyrənə bilməmişdi? Mauqlini sosial varlıq adlandırmaq olarmı?*

Cəmiyyətdən uzaq düşmüş və vəhşi təbiətdə böyümüş uşaqlarla bağlı araşdırma aparın, nəticələrə əsasən kiçik bir təqdimat hazırlayın.

İnsanın həm bioloji, həm də sosial varlıq olduğunu göstərən xüsusiyyətləri müzakirə edin.




İnsanda mənəvi keyfiyyətlər tərbiyənin nəticəsidir. İnsanın inkişafı və formalaşması münasibətlərdən və ailədən asılıdır.




“Canavar-oğlan” adlandırılan ilk uşaq Almaniyada tapılıb. O, dörd yaşına qədər canavar yuvasında yaşayıb, çiy qida ilə qidalanıb və canavarların himayəsində böyüyüb. Bu uşaq danışmağı bacarmayıb.




İnsan sosial varlıq kimi cəmiyyətdə başqa insanlarla ünsiyyət qurur, elmin, cəmiyyətin və insanlar arasında münasibətlərin inkişafına təsir göstərir.

# 10 Ailənin cəmiyyətdə rolu



**Cəmiyyət** ayrı-ayrı qruplardan ibarətdir. O qruplardan biri də ailədir. İnsanın sosial varlıq kimi formalaşmasında, yetişməsində və inkişafında ailənin rolu böyükdür. **Ailə** uşaqların sağlam böyüməsi üçün şərait yaradan, onları qoruyan doğma insanların birliyidir. Uşaqların inkişafına və tərbiyəsinə əsas cavabdehliyi ailənin böyükləri, yəni valideynlər daşıyır.

Ailə başçıları uşaqların yaşaması üçün yaxşı mühit yaratmağa, onların qidalanmasını, sağlam böyüməsini təmin etməyə borcludurlar. Bundan başqa, valideynlər uşaqların dinc və mehriban mühitdə inkişaf etməsi üçün də cavabdehlik daşıyırlar. Onlara qayğı və sevgi göstərir, dəyərli və sevilən olduqlarını hiss etdirirlər. Hüquqlarını qoruyur, bir fərd kimi yetişməsini təmin edirlər.

İnsan ailədə öyrəndiyi bacarıqları əvvəlcə kollektivdə – məktəbdə, sinifdə, daha sonra isə cəmiyyətdə tətbiq etməyə başlayır. Bu səbəbdən də ailə həm öz  üzvü olan fərdin, həm də cəmiyyətin formalaşmasında böyük rol oynayır.




**Ailənin cəmiyyətdə rolu nədən ibarətdir?**

## Fəaliyyət

Ailədə münasibətlər. Öyrəndiyimiz dəyərlər və bacarıqlar. Onların cəmiyyətə təsiri.

Fəaliyyət üçün lazımdır:

"sinif yoldaşını incitmir"

"qardaşını incitmir"

"ailədə heç bir vəzifə daşımır"

"evdə qışqıra-qışqıra danışır"

"sinif yoldaşı ilə anlaşa bilmir"

"müəllimin rəyini nəzərə alır"

"dialoq qurmaq bacarığı var"

"narahatlığını heç kəslə bölüşmür"

1



Sarı rəngli "ailə günəşi" çəkin.

4



Yaşıl rəngli "kollektiv günəşi" çəkin.

2




Ailədə qazandığınız müsbət xüsusiyyətləri seçib sarı stikerlərə yazın və "ailə günəşi"nə yapışdırın.

5




Kollektivdə gördüyünüz müsbət xüsusiyyətləri seçib yaşıl stikerlərə yazın və "kollektiv günəşi"nə yapışdırın.

3




Ailədə qazanıla bilən mənfi xüsusiyyətləri seçib qırmızı stikerlərə yazın və "ailə günəşi"nə yapışdırın.

6




Kollektivdə gördüyünüz mənfi xüsusiyyətləri seçib qırmızı stikerlərə yazın və "kollektiv günəşi"nə yapışdırın.

1. Hər iki "günəş"i müqayisə etdikdə hansı nəticəyə gəldiniz?
2. Ailədə qazandığımız bacarıqlar və xüsusiyyətlər kollektivdə və cəmiyyətdə davranışlarımıza necə təsir edir?
3. Nə üçün ailə cəmiyyətin əsas təməli hesab edilir?



Validеynlərin ailə qarşısındakı vəzifəsi nədən ibarətdir?

Ailədə öyrəndiyimiz hansı bacarıqları kollektivdə və cəmiyyətdə tətbiq edirik?

Şəkillərdə təsvir edilənlər ailədə və kollektivdə formalaşan hansı xüsusiyyətlərdən bəhs edir?






Aşağıda verilən fikirləri tamamlayın:

**1.** ____ cəmiyyətin təməlidir.

**2.** Ailə ____ və ____ formalaşmasında vacib rol oynayır.

**3.** Fərd ____ öyrəndiyi vərdiş və bacarıqları ____ tətbiq edir.

Ailədə uşaqların hüquqlarının müdafiəçilərini sadalayın.

Aşağıdakı cümlələri tamamlayın.

təhlükəsizlikdə hiss etmək — sağlam böyümək — təhsil almaq

Ailə uşağın ____ təmin edir. Valideynlər uşaqların ____ üçün cavabdehlik daşıyırlar. Həmçinin onlar çalışmalıdırlar ki, uşaqlar özlərini ____ .

“Ailəni sevən insanlar cəmiyyəti, xalqı və dövləti də sevirlər” fikrini necə izah edərdiniz?

Azərbaycan cəmiyyətinin inkişafında böyük rolu olan ailələr haqqında araşdırma aparın. *(Məsələn, Həsən bəy Zərdabi və ailəsi, Heydər Əliyev və ailəsi)*

Aşağıdakı fikri izah edin.

> *“Ailə cəmiyyətin təbii və əsas özəyidir və o, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir”.*
>
> **İnsan hüquqları deklarasiyası, maddə 16.3**

Sevdiyiniz insanlara, dostlarınıza, ailə üzvlərinə tez-tez bu sözləri deməyi unutmayın:

“Səni görməyə çox şadam!”

“Nə yaxşı ki varsan!”

“Səni çox sevirəm!”



**Fakt**

15 may bütün dünyada Ailə Günü kimi qeyd edilir. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə keçirilir.



**Maraqlı**

Müasir ailələrdə bir çox vəzifələr dəyişib. Əgər əvvəllər ailənin təminatı ilə atalar, körpə uşaqların tərbiyəsi ilə analar məşğul olurdularsa, bu gün bunun əksini də görmək mümkündür.



**Nəticə**

Ailədə münasibətlər nə qədər düzgün və uğurlu qurulursa, bu, cəmiyyətin inkişafına bir o qədər müsbət təsir göstərir. Ailədə doğru yetişdirilmiş fərd hər zaman cəmiyyətə xeyir verir.

# 11 Ailədə və kollektivdə vəzifələrimiz



Cəmiyyətdə o zaman hər şey qaydasında olur ki, onu təşkil edən müxtəlif qruplarda – ailələrdə, kollektivlərdə qayda-qanunlara, davranış normalarına və vəzifələrə əməl edilsin.

**Vəzifə** üzərimizə düşən və ya ailə böyükləri, müəllimlərimiz tərəfindən bizə tapşırılan işlərin yerinə yetirilməsidir. Ailədə hər kəsin öz vəzifəsi var. Ailə başçıları, yəni valideynlər uşaqlarının yaşamını təmin etməli, onların tərbiyəsi ilə məşğul olmalıdırlar. Övladlarını qayğı və sevgi ilə əhatə etməli, sağlamlığının qeydinə qalmalı, onları qorumalıdırlar. Bu onların vəzifəsidir.

Uşaqların ailədə vəzifələri valideynlərinin məsləhətlərinə və tapşırıqlarına əməl etmək, nizam-intizam qaydalarını qorumaq, valideynlərin yaratdığı səliqə-sahmanı pozmamaqdır. Bundan başqa, uşaqlar ev işlərində ailə başçılarına kömək etməli, dərslərini yaxşı oxumalı, öz otaqlarını səliqəli saxlamalıdırlar.

Ailədə çox zaman evin səliqə-sahmanı, təmizlənməsi, yeməyin və süfrənin hazırlanması və s. işləri analar edirlər. Lakin nəzərə almaq lazımdır ki, müasir ailələrdə hər iki valideyn işləyir. Ona görə də bir çox vəzifələr ailə üzvləri arasında bölüşdürülməlidir. Çünki ailə olmaq, birlikdə yaşamaq bunu tələb edir.

Uşaqların kollektivdə də müəyyən vəzifələri mövcuddur. Sizin kollektiviniz sinif olduğu üçün buradakı vəzifələrinizin əksəriyyəti məktəblə və təhsillə bağlıdır. Şagirdlər intizamlı olmalı, dərslərdə iştirak etməli, məktəbə gecikməməlidirlər. Müəllimlərin tapşırıqlarını yerinə yetirməli, oxuduqları sinfin və məktəbin avadanlığına zərər verməməli, təmizliyi qorumalıdırlar.

**?** **Ailədə və kollektivdə yerinə yetirməli olduğunuz hansı vəzifələr arasında oxşarlıq var?**

## Fəaliyyət

Ailədə və kollektivdəki vəzifələrimizin bizdə tərbiyə etdiyi xüsusiyyətlər.

Lazım olan şəkillər:










**1** 

Üç hissədən ibarət sxem çəkin.

**2** 


Bölmələrə “Vəzifələrimiz”, “Bizdə tərbiyə etdiyi xüsusiyyətlər” və “Yerinə yetirərkən özümüzü necə hiss edirik” başlıqlarını verin.

**3** 


Şəkillərdəki vəzifələri adlandırın və iş vərəqinə yazın.

**4** 


Bu vəzifələrin tərbiyə etdiyi vərdişləri müəyyən edin və uyğun xanaya yazın.

**5** 


Bu vəzifələri icra edərkən hansı hissləri keçirdiyinizi ifadə edin və uyğun xanaya yazın.

**6** 

Alınan nəticəni ümumiləşdirin və müzakirə edin.

1. Ailədəki vəzifələrimiz bizdə daha çox hansı xüsusiyyətləri tərbiyə edir?
2. Sizcə, uşaqların vəzifələri hansı qanunda müəyyən edilib?



Şəkillərdə uşaqların hansı vəzifələri təsvir edilib?








Valideynlərin vəzifələri nədən ibarətdir?

Sizcə, yaxşı oxumayan, dərsə gecikən, səliqəsiz geyinən və müəllimin verdiyi tapşırıqları zamanında etməyən bir şagird hansı vəzifələrini yerinə yetirmir və onda hansı vərdişlər yoxdur?

Sizcə, həm valideynlərin, həm də uşaqların vəzifələrini yerinə yetirməsi nə üçün vacibdir?

Ailədə üzərimizə düşən vəzifələri icra edərkən verilən xüsusiyyətlərdən hansıları öyrənirik?

a) Məsuliyyətsiz olmağı
b) Qarşımıza məqsədlər qoymağı
c) Laqeydliyi
d) Əməksevərliyi
e) Tənbəllik etməyi

Verilən sözləri uyğun yerlərə yerləşdirməklə fikirləri tamamlayın.

*öz otağını, zəhmət çəkmək, səliqə-sahmanlı, əməksevərlik, planlamaq, məqsədlər*

*____ təmizləmək uşaqlara ____ olmağı öyrədir. Hər gün valideynlərə hansısa işdə yardım edib ____ isə ____ xüsusiyyətini tərbiyə edir. Ona tapşırılan hər hansı bir işi vaxtında görə bilən uşaq vaxtını və gününü ____, qarşısına ____ qoymağı öyrənir.*

"Uşaq hüquqları haqqında" Qanunda vəzifələriniz haqqında verilən fikri müzakirə edin. Sizcə, "xalqların ənənələrinə hörmətlə yanaşmaq" dedikdə nə nəzərdə tutulur?

*Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, öz xalqının və başqa xalqların ənənələrinə hörmətlə yanaşmaq, ətraf mühiti qorumaq uşağın borcudur.*

**Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 16**




"Uşaq hüquqları haqqında" Qanuna görə, uşaqların vurduğu maddi ziyana görə onun valideynləri məsuliyyət daşıyırlar. (maddə 19)




Çin ailələrində ata da, ana da eyni şəkildə həm pul qazanıb ailəni dolandıra, həm də evdə oturub uşaqların tərbiyəsi ilə məşğul ola bilər. Hələ kiçik yaşlarından çinli uşaqlar ailədə əməksevərliyə öyrədilir.




Hər kəs vəzifələrini bilməli və onlara əməl etməlidir. Ailə və kollektivdə yerinə yetirilən vəzifələr insanda məsuliyyət, əməksevərlik, müstəqil hərəkət etmək kimi xüsusiyyətlər formalaşdırır.

# 12 Cəmiyyətdə ünsiyyətin rolu



Ünsiyyət mədəniyyəti insanlarla münasibət qurmaq üçün vacib olan bacarıqların toplusudur. Bu bacarıqlardan ən əhəmiyyətlisi nəzakət qaydalarına əməl etməkdir. Salamlaşmaq və bu zaman gülümsəmək vacibdir. Təbəssüm sizin insanlara qarşı xoş niyyətlə yanaşdığınızı göstərir. Salamlaşma zamanı əl ilə görüşmək lazımdırsa, bunu əvvəlcə yaşca daha böyük olan insan etməlidir. Əgər salamlaşan tərəflərdən biri qadındırsa, əvvəlcə o, əl uzatmalıdır.

Söhbət zamanı tanımadığınız insanlara “sən” deyil, “siz” deyə müraciət etməlisiniz. Xüsusilə də onlar yaşca sizdən böyükdürlərsə. Həmsöhbətiniz diqqətinizin onda olduğunu hiss etməlidir.

**Ünsiyyət** bizə düşüncələrimizi demək, bir-birimizlə fikirlərimizi paylaşmaq üçün vacibdir. Təmkinlə danışmaq, qarşıdakı adamın söz deməsinə imkan vermək lazımdır. Başqasının sözünü kəsmək doğru deyil. Bəzən müəyyən məsələlərlə bağlı fikir ayrılıqları ola bilər. Nəzakətli insanlar belə hallarda səslərini yüksəltmir, kobudluğa yol vermirlər. Çünki bu vaxt qarşı tərəf də kobud davranacaq, nəticədə ortaq fikir əldə edilməyəcək.

İnsanları incitməmək, nəzakətli olmaq, kobudluq etməmək yaxşı xüsusiyyətlərdir. Lakin unutmaq olmaz ki, yeri gəldikdə zərərli təkliflərə, qəbulolunmaz fikirlərə mədəni şəkildə “yox” deməyi də bacarmaq lazımdır. Bununla fikrinizi ifadə etməkdən başqa, həm də özünüzü qoruyacaqsınız.

**? Sizcə, hansı hallarda biz “yox” deməyi bacarmalıyıq və bu nə üçün nəzakətsizlik hesab edilməyəcək?**

## Fəaliyyət

Ünsiyyət mədəniyyətini əks etdirən təqdimatın hazırlanması.

**Lazım olan şəkillər:**





1. Birinci şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.



2. İkinci şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.



3. Üçüncü şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.



4. Dördüncü şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.



5. Beşinci şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.



6. Altıncı şəkil əsasında kiçik hekayə qurun və uyğun nəzakətli sözlərdən istifadə edin.

1. Şəkillərdə təsvir edilən oxşar vəziyyətlərdə siz necə davranardınız?
2. Sizcə, hər hansı bir təklifə mədəni şəkildə necə rədd cavabı verilə bilər?



Ünsiyyət mədəniyyəti nədir?

İnsanlar ünsiyyət mədəniyyətindən nə üçün istifadə edirlər?

Aşağıda qeyd edilən fikirlərin hansı doğrudur?

1. Nəzakət qaydalarına əməl edən insan mədəni insandır.
2. Başqasının sözünü kobudcasına kəsən insan ünsiyyət mədəniyyətini pozmur.
3. Cəmiyyətdə insanlar arasında münasibətlərin yaxşı olması üçün ünsiyyət mədəniyyətinin qorunması vacib deyil.

Sizcə, ünsiyyətdə təbəssümün rolu nədən ibarətdir?

Bu uşaqlardan hansılar ünsiyyət mədəniyyətini pozur?












Şəkillərdə ünsiyyət zamanı yol verilən səhvləri müəyyənləşdirin və müzakirə edin.





*Siz eyni vəziyyətlə qarşılaşdığınız zaman necə davranarsınız?*

Ünsiyyətlə bağlı vacib olan qaydaları müzakirə edin. Siz onlara əməl etməyi bacarırsınızmı?

1. Öz fikirlərinizi başqalarına zorla qəbul etdirməyə çalışmayın.
2. İnsanlara xoş söz deməkdən çəkinməyin.
3. Eyni sözü təkrar-təkrar deməyin.
4. Düşünmədən danışmayın.



**Fakt**

Ünsiyyət mədəniyyətinin qızıl qaydalarından biri də budur: “Bəzən susmağı da bacarmaq lazımdır”.



**Maraqlı**

Dünyada müxtəlif xalqların bir-birindən fərqlənən ünsiyyət mədəniyyətləri var. Məsələn, tibetlilər bir-biri ilə salamlaşmaq üçün dillərini çıxarırlar.



**Nəticə**

Mədəni ünsiyyət hər zaman başqalarının fikrini qəbul etmək deyil. Həm də qəbul etmədiyimiz və razılaşmadığımız fikirlərə münasibət bildirməyi bacarmaqdır.

# 13 Mənəvi keyfiyyətlərimiz



İnsan ağlı, nitqi, düşünmə bacarığından başqa, həm də **mənəvi keyfiyyətləri** ilə digər canlılardan fərqlənir. Mənəvi keyfiyyətlər müsbət və mənfi xüsusiyyətlərin toplusudur. Onlar bizim davranışımıza, başqalarına qarşı münasibətimizə, hadisələrə yanaşmamıza da təsir göstərir.

Vətənpərvərlik, dürüstlük, vicdanlı olmaq, ailə qarşısında məsuliyyət hiss etmək, insanlara hörmətlə yanaşmaq, yaşlıların və özündən kiçiklərin qayğısına qalmaq müsbət mənəvi keyfiyyətlərdir. Paylaşmağı bacarmaq, səbirli və təmkinli olmaq, ətrafındakı insanlara sevgi ilə yanaşmaq da müsbət xüsusiyyətlər hesab edilir. Laqeydlik, xəsislik, sevgisizlik, hörmətsizlik isə insanın mənfi keyfiyyətləridir.

Nəzərə alın ki, heç bir insan yalnız müsbət və ya yalnız mənfi keyfiyyətlərə malik ola bilməz. Eyni zamanda heç kim dünyaya bu keyfiyyətlərlə birlikdə gəlmir. Ailəmiz, ünsiyyətdə olduğumuz insanlar, cəmiyyət bu keyfiyyətlərin formalaşmasına və inkişafına təsir göstərir. Məsələn, hər zaman sevilən, hörmət və qayğı ilə əhatə olunan bir uşaq ətrafında gördüyü bu münasibəti özündə də formalaşdırır və başqa insanlara da bu cür yanaşmağa çalışır. İncidilən, qayğı hiss etməyən insanda isə başqalarına qarşı inamsızlıq, sevgisizlik, qəzəb yarana bilər. Buna görə də doğmalarınızla, yoldaşlarınızla, tanıdığınız və tanımadığınız insanlarla ünsiyyətdə diqqətli olmaq lazımdır. Çünki biz ailənin, kollektivin, cəmiyyətin üzvüyük və sahib olduğumuz mənəvi keyfiyyətlər ünsiyyətdə olduğumuz başqa insanların mənəvi keyfiyyətlərinin formalaşmasına təsir göstərir.

**? Sizcə, özünüzdə və ya yoldaşlarınızda olan mənfi keyfiyyətləri necə aradan qaldıra bilərsiniz?**

## Fəaliyyət

İnsanda mənfi və müsbət keyfiyyətlərin müəyyənləşdirilməsi. Bu keyfiyyətlərə yanaşma.

**Lazım olan şəkillər:**



1



Verilən şəkilləri nəzərdən keçirin.

2




Şəkillərdəki qəhrəmanları adlandırın.

3




Şəkillər əsasında hekayə süjeti qurun.

4



Hər bir şəkildə təsvir edilmiş müsbət keyfiyyətləri qeyd edin.

5



Hər bir şəkildə gördüyünüz mənfi keyfiyyətləri qeyd edin.

6




Qurduğunuz hekayə əsasında nəticə çıxarın.

1. Şəkillərdə hansı müsbət və mənfi keyfiyyətləri müşahidə etdiniz?
2. Eyni vəziyyətdə siz necə davranardınız?



İnsanların hansı müsbət mənəvi keyfiyyətləri var?

İnsanlarda istənilən bir mənəvi keyfiyyətin formalaşmasına hansı amillər təsir göstərir?

Sizcə, filmlər, cizgi filmləri, bədii əsərlər, tamaşalar bizim mənəvi keyfiyyətlərimizə təsir göstərə bilərmi? Nümunələrlə fikrinizi əsaslandırın.

**“Qəzəb qəzəb doğurur, sevgi isə sevgi”** fikrinin mənasını necə izah edə bilərsiniz?

Uyğunluğu müəyyən edin:

| | |
|---|---|
| Mərhəmət | 1 hər məsələdə həqiqəti, düzgünlüyü qoruyub saxlamaq |
| Mehribanlıq | 2 ehtiyacı olan insanlara yardım etmək istəyi |
| Əməksevərlik | 3 insanın işə qarşı sevgisinin olması |
| Dürüstlük | 4 ətrafdakı insanlara səmimi, xoş yanaşmaq |

“İstanbul mühafizəçiləri” cizgi filminə baxın və obrazların müsbət xüsusiyyətlərini müəyyənləşdirin. Sizcə, paytaxtımızın, Vətənimizin bu cür mühafizəçilərə ehtiyacı varmı? Kiçik bir təqdimat hazırlayın.





Açar sözlərdən istifadə etməklə mətni tamamlayın.

paxıl

müsbət keyfiyyətlər

mərhəmətli

insanlarla ünsiyyət

Mənəvi keyfiyyətlərimiz bizim ____ ____ təsir göstərir. ____ malik olan insanlar başqaları ilə daha rahat ünsiyyət qurur. ____ insanlar başqalarının uğuruna sevinə bilmirlər. ____ insanlar isə ehtiyacı olan hər kəsə yardım etməyə, əldən tutmağa çalışırlar.

"Ögey ana" filmindən bir parçaya tamaşa edin. İsmayılın müsbət və mənfi keyfiyyətlərini əks etdirən bir təqdimat hazırlayın.





**Fakt**

Yumor hissinə malik olan və zarafat etməyi bacaran insanlar həyatda qarşılaşdıqları çətinliklərin öhdəsindən daha asan gəlirlər.



**Maraqlı**

Müsbət və mənfi mənəvi keyfiyyətlər insanların cəmiyyətdə mövqeyinə ciddi təsir göstərir. Məsuliyyətli insanlar hər zaman uğur qazanır və məqsədlərinə nail olurlar.



**Nəticə**

İnsanın mənəvi keyfiyyətlərinə ətraf mühitin, ailənin, kollektivin təsiri böyükdür. İnsan mənfi keyfiyyətlərinə qarşı mübarizə aparmalı, öz üzərində daim işləməlidir.

# 14 Mənəvi borc



İnsanın müsbət mənəvi xüsusiyyətləri arasında **ailə** və **Vətən sevgisi** ən vacib yeri tutur. Bunlar bir-biri ilə çox bağlı anlayışlardır. Çünki insanı Vətəninə bağlayan, ilk növbədə, ailəsidir. Vətən ailəmizin məskənidir. Doğulduğumuz, yaşadığımız, böyüdüyümüz torpaqlardır. Ulu babalarımızın, onların ulu babalarının, eyni zamanda da gələcək nəsillərimizin ən dəyərli nemətidir.

Ailə kimi, Vətən sevgisi də insanların daxilində böyüyən bir hissdir. O öyrədilmir. Sadəcə, ürəyimizdə məskən salır. Himnimiz səslənəndə, bayrağımız yüksəklərə qaldırılanda, idman, mədəniyyət və elm sahələrində həmvətənlərimiz uğur qazananda qürur duyuruq. İgid əsgərlərimiz zəfər yürüşü ilə addımlayanda ürəyimiz həyəcanla döyünür. Gözəl təbiətimizdən, sərvətlərimizdən, torpaqlarımızdan, tariximizdən, maddi dəyərlərimiz olan abidələrimizdən danışdıqda fəxr edirik. Mənəvi abidələrimizdən – musiqimizdən, muğamlarımızdan danışanda həyəcanlanırıq. Bu hissləri bəzən sözlə ifadə etmək çətindir. Əslində, bu, Vətən sevgisidir.

Bütün sevgilər kimi, Vətən sevgisi də yalnız hisslə bağlı deyil. Eyni zamanda vəzifə və mənəvi borc tələb edir. İnsan sevdiklərinə, ailəsinə qarşı necə diqqətli, qayğıkeş olursa, Vətənə qarşı da olmalıdır. Ailəsini, onun dəyərlərini necə qoruyursa, Vətənini, onun sərhədlərini, maddi və mənəvi sərvətlərini də eyni şəkildə qorumalıdır. Hətta lazım gəldikdə, Vətən uğrunda canından belə keçməyi bacarmalıdır. Ailəmizin tarixini, keçmişini, dəyərlərini necə biliriksə, Vətənimizin də tarixi keçmişini, mədəniyyətini, dəyərlərini o cür tanımalıyıq. Bu, Vətən qarşısında ən böyük mənəvi borcumuzdur.

**? Sizcə, insanların Vətən qarşısında başqa hansı mənəvi borcları var?**

## Fəaliyyət

Ailə və Vətən qarşısında mənəvi borcumuz.

Lazım olan şəkillər:








1 

"Mənəvi" və "borc" sözlərinin mənasını "İzahlı lüğət"dən taparaq yazın.

2 
Şəkillərə nəzər yetirin və təsvir olunanları müzakirə edin.

3 
Ailə qarşısında mənəvi borcu ifadə edən şəkilləri seçin.

4 

Bu şəkillərin hər birində insanın ailə qarşısında hansı mənəvi borcunun təsvir olunduğunu qeyd edin.

5 
Vətən qarşısında mənəvi borcu ifadə edən şəkilləri seçin.

6 

Bu şəkillərin hər birində insanın Vətən qarşısında hansı mənəvi borcunun təsvir olunduğunu qeyd edin.

1. Ailə və Vətən qarşısında hiss etdiyimiz hansı mənəvi borclar oxşardır?
2. Sizcə, bu mənəvi borclardan hansı həm də vəzifələrimizdir?
3. Ailə və Vətən qarşısında hiss etdiyimiz mənəvi borcla vəzifələrimiz arasında fərq nədədir?



Borc anlayışı cəmiyyətdə insanları başqa insanlarla əlaqələndirir. Sizcə, biz kimlərə qarşı mənəvi borc hiss etməliyik?

Aşağıda qeyd edilənlərdən hansılar Vətən qarşısında mənəvi borcumuzdur?

a) Qəhrəmanlarını tanımaq

b) Ailəmizi sevmək

c) Vətən torpaqlarını qorumaq

d) Vətəndə yaşamaq

Qorumağa borclu olduğumuz hansı maddi mədəniyyət abidələrimizi tanıyırsınız?

Ətrafınızda müşahidə etdiyiniz hadisələr arasından mənəvi borcla bağlı nümunələr gətirin.

Sizcə, tarixi keçmişimizi bilmək nə üçün bizim mənəvi borcumuzdur?



“Cavanşir” cizgi filminə baxın. Tarixi şəxsiyyətlər, qəhrəmanlar haqqında verilən məlumatlarla filmin qəhrəmanının qorxmazlığı arasında əlaqəni müəyyən edin.





Açar sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

vəzifə | mənəvi borc

İnsanların hüquq və ______ qanunla tənzimlənir. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasında bizim hüquqlarımız və ______ müəyyən edilib. ______ isə insanın öz vicdanı və inancları, ailə tərbiyəsinin təsiri ilə müəyyən edilir.

Mənəvi borcunuz və vəzifələriniz əsasında Venn diaqramı hazırlayın.

“Vətəndən pay olmayır” mahnısını dinləyin. Sözlərini yazın və müzakirə edin.



**Fakt**

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə, tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur. Onlar xalqın milli sərvətidir.



**Maraqlı**

Azərbaycan torpaqları işğal edilən zaman oğurlanan, sonra da dövlətimiz tərəfindən geri alınan üç abidə – Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın büstləri bu gün azad edilmiş Şuşadadır.



**Nəticə**

Vətən qarşısında ən böyük mənəvi borc onu sevmək, tarixini və mədəniyyətini bilmək, sərhədlərini və sərvətlərini qorumaq, hər sahədə Vətənin adını uca tutmağa çalışmaqdır.

# 15 Dini dəyərlər



Dinlər müxtəlif mənəvi dəyərləri təbliğ edir. İslam dini başqalarına münasibətdə ədalətli və vicdanlı olmağı, böyüklərə, yaşlılara, özündən kiçiklərə hörmət etməyi öyrədir. Zəhməti və əməyi sevməyi, halal yolla qazanmağı, yalandan, haramdan uzaq olmağı deməklə müsbət mənəvi keyfiyyətlərin formalaşmasına təsir göstərir.

Hər bir dinin yayılmasında və inkişafında dini şəxsiyyətlərin rolu olub. Bu şəxsiyyətlər arasında peyğəmbərlər əsas yer tutub. Onlar insanlara dini və onun əsas qaydalarını öyrədiblər. İslam dininin müqəddəs kitabı olan “Qurani-Kərim” məhz peyğəmbər vasitəsilə insanlara çatdırılıb.

İslam dini elm və təhsilin vacib olduğunu deyir. “Qurani-Kərim” “Oxu!” sözü ilə başlayır. İslam peyğəmbərinin bu fikri isə çox məşhurdur: “Elm öyrənmək üçün uzaq Çinə belə get”. Lakin bəzən dinlərdən, dini kitablarda yazılan fikirlərdən istifadə edərək cəmiyyətdə həqiqətə uyğun olmayan düşüncələr, yanlış inanclar yaymağa çalışırlar. Bu isə insanlarda çaşqınlıq yaradır. Keçmiş zamanlarda insanların əksəriyyəti savadsız olduğu üçün din adı ilə onları aldatmaq daha asan idi. Məsələn, əvvəllər düşünürdülər ki, islam dini qızların oxumasını qadağan edir. Hətta Azərbaycanda Qızlar məktəbinin açılması üçün ziyalılar, xeyriyyəçilər uzun müddət mübarizə aparmalı olmuşdular. Halbuki müasir dövrdə qızların oxuması artıq adi haldır.

**Sizcə, dinlə bağlı yanlış fikirlər insanların düşüncəsinə necə ziyan vura bilər?**

## Fəaliyyət

Dinin dedikləri və yanlış inanclar.

Lazım olan şəkillər:





1 Şəkillərə baxın və təsvir edilənlər haqqında danışın.



2 Yanlış inancla bağlı olduğunu düşündüyünüz şəkilləri seçin.




3 Şəkli adlandırın, yazın və fikrinizi izah edin.



4 Dini inancla bağlı olduğunu düşündüyünüz şəkilləri seçin.




5 Şəkli adlandırın, yazın və fikrinizi izah edin.



6 Müasir cəmiyyətimizdə bu cür halların olub-olmadığını müzakirə edin.

1. Cəmiyyətdə dinlə bağlı yanlış fikirlərin yayılmaması üçün, sizcə, nə etmək lazımdır?
2. Siz cəmiyyətdə başqa hansı bu cür halları müşahidə etmisiniz?



Sizcə, din adı altında yayılan yanlış düşüncələr elm və təhsilin inkişafına necə mane ola bilər?

Aşağıdakılardan hansı din adı ilə yayılan yanlış fikirdir?

1 "Elm öyrənmək üçün uzaq Çinə belə get".

2 "Din insanlara halal yaşamağı təbliğ edir".

3 "Oğlanla qızın birlikdə oxuması günahdır".

4 "Din bizə ədalətli olmağı öyrədir".

Mirzə Ələkbər Sabirin "Oxutmuram, əl çəkin!" şeirinin bu misralarını müzakirə edin. Həmin misralar müasir dövrümüzlə səsləşirmi? Nə üçün belə düşünürsünüz?



Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Düzgün fikri müəyyən edin.

1. Dini fikirlər yanlış təbliğ edildikdə insanlarda çaşqınlıq yaranar.
2. Din insanları ədalətli olmağa çağırır.
3. Din cəmiyyətin inkişafına kömək edir.

İslam dininin təbliğ etdiyi müsbət mənəvi dəyərlər haqqında məlumat toplayın.

“Dəli Kür” filmindən seçilmiş parçalara tamaşa edin. Suallar əsasında müzakirə aparın.

1. Sizcə, söhbət hansı dövrdən gedir?
2. Meydana yığışmış insanlar nə üçün müəllimin sözlərini həyəcanla qarşılayırlar?
3. İnsanların uşaqlarını oxumağa göndərməsinə mane olan nədir?





**Fakt**

Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir. **(“Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu)**



**Maraqlı**

Araşdırmalar göstərir ki, dünyada insanlar arasında ən sürətlə yayılan din islam dinidir.



**Nəticə**

Cəmiyyətin inkişafı elm və təhsilin inkişafından asılıdır. Dinlə bağlı yanlış fikirlərin yayılması insanlara, xüsusilə uşaqlara mənfi təsir edə, onları oxumaqdan və elmdən yayındıra bilər.

# 16 Dövlət orqanları



Dövlət ərazisi, əhalisi, qanunları olan bir quruluşdur. Hər bir ailənin başçısı olduğu kimi, dövlətin də başçısı var. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. Prezidenti səsvermə yolu ilə xalq seçir.

Dövlətin əsas məqsədi vətəndaşların hüquqlarını qorumaqdır. Bu iş dövlət orqanları vasitəsilə yerinə yetirilir. Hüquqlarımız müxtəlif olduğu kimi, onları qoruyan dövlət orqanları da müxtəlifdir.

Hər bir dövlət orqanının öz funksiyası var. Məsələn, bizim təhsil almaq hüququmuzu, onun qorunmasına nəzarəti Elm və Təhsil Nazirliyi həyata keçirir. Bu orqan həmçinin dövlətin elm və təhsillə bağlı qəbul etdiyi qanunları yerinə yetirir. Sağlamlığımızın qorunması üçün vacib olan işləri Səhiyyə Nazirliyi həyata keçirir.

Dövlətimizdə qanunları qəbul edən dövlət orqanı Milli Məclisdir. Xalqın seçdiyi millət vəkilləri burada müxtəlif qanunlar hazırlayırlar. Digər əsas dövlət orqanlarından biri də Nazirlər Kabinetidir. O, qanunların həyata keçirilməsinə nəzarət edir. Nazirlər Kabineti Prezidentə tabedir.

Dövlət orqanlarının adlarına diqqət etdikdə onların hansı funksiyanı yerinə yetirdiyini anlamaq olar. Məsələn, Fövqəladə Hallar Nazirliyinin əsas işi insanları qəzalardan, təbii fəlakətlərdən, fövqəladə hallardan qorumaq, bu halların nəticələrini aradan qaldırmaqdır. Təbiətin və canlılar aləminin qorunması işinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzarət edir. Mədəniyyət Nazirliyi mədəniyyətin inkişafı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi insanların sosial təminatı, Gənclər və İdman Nazirliyi idman və gəncliyin inkişafı ilə bağlı məsələləri həyata keçirir.

**Sizcə, dövlət orqanları olmasa, nə baş verər?**

# Fəaliyyət

Dövlət orqanlarının funksiyaları.

Fəaliyyət üçün lazımdır:



1 

Verilən simvolları iş dəftərinə yapışdırın.

2 


Hansı dövlət orqanına aid olduğunu müəyyənləşdirin və şəkillərin yanında adlarını yazın.

3 


Bu dövlət orqanının yerinə yetirdiyi funksiyalar haqqında bildiklərinizi qeyd edin.

4 

Qanunları verən dövlət orqanını müəyyənləşdirin və şəklini yapışdırın.

5 

Qanunların yerinə yetirilməsinə nəzarət edən orqanı müəyyənləşdirin və simvolunu yapışdırın.

6 

Qanunların pozulması hallarına nəzarət edən dövlət orqanını müəyyənləşdirin və yazın.

1. Başqa hansı dövlət orqanları haqqında məlumatınız var?
2. Hansı dövlət orqanının fəaliyyətini gündəlik həyatınızda hiss etmisiniz? Bu fəaliyyət nədən ibarətdir?



Dövlət nədir? Dövlətin əsas vəzifəsi nədən ibarətdir?

Sağlamlıq və təhsil almaq hüquqlarınızı hansı dövlət orqanları təmin edir?

Vətəndaşların hüquqları hansı yollarla qorunur?

Gənclər və İdman Nazirliyinin funksiyası nədən ibarətdir?

Konstitusiyadakı bu fikir uşaqların hansı hüququnu qoruyur?

"Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir".

Dövlət başçısı və millət vəkilləri necə seçilir?



Oxuyun və izah etməyə çalışın.

> *Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.*
>
> **Azərbaycan Respublikasının Konstitusiyası, maddə 17**

Verilmiş sözlərdən istifadə edərək cümlələri tamamlayın.

dövlət    qanun    hüquq

Valideynləri olmayan, valideyn qayğısından məhrum olan uşaqlar ______ himayəsindədirlər. Dövlət bizim ______ qoruyucusudur. Hüquqlarımız ______ vasitəsilə qorunur.

Dövlət orqanlarından biri haqqında araşdırma aparın və təqdimat hazırlayın.



**Fakt**

Azərbaycanda təhsil üzrə ilk nazirlik 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılıb. O zaman bu dövlət orqanı Xalq Maarif Nazirliyi adlanırdı.



**Maraqlı**

Azərbaycan xalqı 3 minillik dövlətçilik tarixinə malikdir. Dövlət Bayrağı, Himnimiz, Gerbimiz ilk dəfə Xalq Cümhuriyyəti dövründə qəbul olunub, Azərbaycan dili dövlət dili elan edilib.



**Nəticə**

Dövlət orqanları vətəndaşların hüququnu qoruyan qanunlar həyata keçirir. Onlar olmasa, hüquqların qorunmasına və qanunlara əməl edilməsinə nəzarət etmək olmaz.

# 17 Hüquqlarımız



Dilindən, dinindən, cinsindən asılı olmayaraq, insan hüquqları hamıya şamil edilir. Uşaqların da öz hüquqları var. Azərbaycanda uşaq hüquqlarının qorunması ilə bağlı “Uşaq hüquqları haqqında” Qanun mövcuddur. Qanun uşaqlara valideynlərlə birlikdə və onların qayğısı altında, normal şəraitdə yaşamaq hüququ verir. Dövlət bu şəraiti təmin etməyi, bunun üçün tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

“Uşaq hüquqları haqqında” Qanunda hüquqlardan başqa, vəzifələr də müəyyən edilir. Uşaqların əsas vəzifələri cəmiyyətdə davranış qaydalarına əməl etmək, dövlət rəmzlərinə bələd olmaqdır. Uşaqlar biliklərə yiyələnməli, özlərini faydalı fəaliyyətə hazırlamalı, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumalıdırlar.

Dövlətimiz bütün dünya uşaqlarının hüquqlarının qorunmasından bəhs edən “Uşaq hüquqları haqqında” Konvensiyaya imza atıb. Bu sənəd bəzi dünya ölkələrində kiçik yaşlarından işləməyə məcbur olan, təhsildən kənarda qalan, hətta aclıq çəkən uşaqların hüquqlarını qorumaq məqsədilə qəbul edilib. Onu imzalayan dövlətlər uşaq hüquqlarını qorumağa borcludur.

Konvensiyada uşaqların yaşamaq və sağlam inkişaf etmək, birləşmək və dinc toplaşmaq azadlığının olduğu qeyd edilir. Bu sənədə əsasən, uşaqların səhiyyə sisteminin xidmətindən istifadə etmək, təhsil almaq, zorakılıqdan müdafiə olunmaq hüququ var. Konvensiyada deyilir: uşaqlar cəmiyyətdə elə yetişdirilməlidir ki, onlarda “yox” demək bacarığı olsun. Hüquqlarını bilən və onun başqa şəxslər tərəfindən pozulduğunu anlayan uşaqlar özlərini və həmyaşıdlarını müdafiə etməyi bacarmalıdırlar.

**Uşaqlar nə üçün öz hüquqlarını bilməlidirlər?**

# Fəaliyyət

Hüquqların qorunması və pozulması halları.

Fəaliyyət üçün lazımdır:













Uşaq hüquqlarının qorunduğu şəkilləri seçin.




Bu şəkillərdə hansı hüquqların qorunduğunu və bununla bağlı biliklərinizi yazın.




Uşaq hüquqlarının pozulduğu şəkilləri seçin.




Bu şəkillərdə hansı hüquqların pozulduğunun təsvir edildiyini və bunla bağlı biliklərinizi yazın.




Bunlardan hansının "Uşaq hüquqları haqqında" Qanunla nəzərdə tutulduğunu qeyd edin.




Bunlardan hansının "Uşaq hüquqları haqqında" Konvensiyada nəzərdə tutulduğunu qeyd edin.

1. Sizcə, Azərbaycan dövləti nə üçün Konvensiyaya imza atıb?
2. Siz özünüzün bütün hüquqlarınızın qorunduğunu düşünürsünüzmü? Nə üçün?



Uşaq hüquqları ilə bağlı hansı sənədlər haqqında məlumatlısınız?

“Uşaq hüquqları haqqında” Qanun uşaqların hansı hüquqlarını qoruyur?

Uşaq hüquqlarının qorunmasına kim təminat verir?

“Uşaq hüquqları haqqında” Konvensiyanın əsas məqsədi nədir?




Sizcə, uşaqlar hansısa hüquqları pozulduğu zaman kimə müraciət etməlidirlər?

Sizcə, hansı hallarda uşaqlar “yox” deməyi bacarmalıdırlar?

Venn diaqramı vasitəsilə “Uşaq hüquqları haqqında” Konvensiya ilə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununu müqayisə edin.



Nadirin atası onu mağazadan çörək, qənd və energetik içki almağa göndərir. Satıcı ona çörək və qəndi versə də, içkini vermək hüququnun olmadığını deyir. Nadirin dostu Ayaz satıcını əmin etməyə çalışır ki, içki dostu üçün yox, onun atası üçün alınır. İşdən yorğun gəlmiş adamı yalnız buna görə əziyyətə salmağa dəyməz. Satıcı isə satmaq hüququnun olmadığına israr edir.

Sizcə, bu halda kim haqlıdır? Müzakirə edin.

Qanunun aşağıda verilən maddəsini müzakirə edin və bu cür pozulma halları ilə qarşılaşıb-qarşılaşmadığınızı deyin. Bununla bağlı bir müddət müşahidə aparın və nəticələri ümumiləşdirin.

*“Alkoqollu və energetik içkilərin, tütün məmulatlarının uşaqlara satılması qadağandır”.*

**“Uşaq hüquqları haqqında” Qanun, maddə 16**




Qanunda deyilir ki, televiziyada göstərilən uşaq verilişləri “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq reklamla kəsilə bilməz.




“Uşaq hüquqları haqqında” Qanunda deyilir ki, dərslikdə, dərs vəsaitində, uşaqlar üçün nəzərdə tutulmuş kitabda reklam yerləşdirilə bilməz.




Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Uşaqlar özlərini müdafiə etməyi bacarmaq üçün öz hüquqlarını bilməlidirlər.

# 18 Dövlət büdcəsi



Ailə büdcəsi ailə üzvlərinin gəlirlərindən və xərclərindən ibarətdir. Dövlət də ailə kimidir. Onun da öz büdcəsi var. Ailə büdcəsi hesablanarkən ailənin biraylıq gəliri və xərci nəzərə alınır. Dövlət büdcəsi isə dövlətin birillik gəliri və xərcləri nəzərə alınaraq təşkil edilir. Ata və ananın məvacibi, nənə və babanın pensiyası ailənin gəliridir. Dövlətin gəliri isə onun təbii ehtiyatlarının və istehsal edilən malların satışından, vergilərin toplanmasından əldə edilir.

Ailə kimi, dövlətin də büdcəsində müəyyən xərclər nəzərdə tutulur. Bu xərclər inkişaf etdirilməli olan müxtəlif sahələrə sərf edilir. Həmin sahələrdən vacibləri təhsil, səhiyyə və mədəniyyətdir. Ölkəmizdə hər il bir çox təhsil və səhiyyə müəssisələri tikilir. Bundan başqa, binaların təmir edilməsinə, yeni avadanlıqların alınmasına da pul xərclənir. Hər il məktəblərdə şagirdlərə pulsuz dərsliklər paylanır. Dövlət hesabına müxtəlif mədəni tədbirlər, bayramlar, yubileylər keçirilir. Son illərdə azad edilən torpaqlarımızda dağıntıların aradan qaldırılması üçün çoxlu işlər görülür. Yeni binalar, məktəblər, kitabxanalar tikilir, yollar çəkilir, şəhər və qəsəbələr yenidən qurulur.

Ailə büdcəsi kimi, dövlət büdcəsində də xərclər gəlirdən çox olduqda borc yarana bilər. Borc yaranmaması üçün büdcəyə qənaət etmək, israfa yol verməmək lazımdır.

**Qənaət və israf nədir?**

## Fəaliyyət

Ailə və dövlət büdcəsinin sxemi.

Fəaliyyət üçün lazımdır:



atanın maaşı

nənənin pensiyası

təhsil xərcləri

işıqpulu

qazpulu

səhiyyə xərcləri

təbii ehtiyatların satışı

**1**




Ailə gəlirini yaradan amilləri yazın.

**2**



Ailədə pulların nəyə xərcləndiyini qeyd edin.

**3**




Dövlət gəlirini yaradan amilləri yazın.

**4**




Dövlətin pullarının nəyə xərcləndiyini müəyyən edin.

**5**




Ailənin və dövlətin büdcəyə qənaət üçün nə edə biləcəyini yazın.

**6**




Ailə və dövlət büdcəsi arasında müqayisə aparın.

1. Ailə və dövlət büdcəsində hansı oxşarlıqlar var?
2. Dövlətin büdcəsinin hara xərcləndiyini müşahidə etmişsinizmi?



Ailədə xərcləri azaltmaq üçün hansı təklifləri vermək olar?

Verilənlərdən hansılar dövlət büdcəsinin gəlir hissəsini təşkil edir?

a) Təbii ehtiyatların satışı
b) Məktəb binalarının tikilməsi
c) Toplanan vergilər
d) Dərsliklərin çapı

Aşağıdakı şəkillərdən hansında dövlət büdcəsinin xərclənməsi təsvir edilib? Fikrinizi izah edin.


Füzuli Beynəlxalq Hava Limanının tikintisi


Peyvənd vurulma


Neft satışı

Büdcədə xərclər gəlirdən çox olarsa, nə baş verər?

Uyğunluğu müəyyən edin:

1 Pensiyaların verilməsi
2 Əhaliyə peyvənd vurulması
3 Əhalidən yığılan vergi
4 Məktəblərin tikilməsi
5 Xaricə satılan qaz
6 Abidələrin qorunmasına xərclənən pul

dövlət büdcəsinin gəliri

dövlət büdcəsinin xərci

Sizcə, ailə büdcəsi necə israf edilə bilər?

Dövlət büdcəsindən təhsil sahəsinin inkişafına sərf edilən xərclər haqqında araşdırma aparın. Təhsillə bağlı nələrə dövlət büdcəsindən pul xərcləndiyini qeyd edin.

Uyğun sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

israf      qənaət      ağac

İstifadə edilmiş kağızları təkrar emal edərək ____ etmək mümkündür. Bununla ____ kəsilməsinin qarşısı alına bilər. Hər kəs qaza, işığa, suya ____ etsə, ____ yol verməz.

Aşağıda verilən xərclərin hansı sahəyə aid olduğunu müəyyənləşdirin.

1. Məktəb binasının tikilməsi
2. Dərsliklərin çapı
3. Abidələrin ucaldılması
4. Tələbələrə təqaüdün verilməsi
5. Həkimlərin maaşının verilməsi
6. Müəllimlərin maaşının verilməsi
7. Xəstəxanaların təmiri
8. Peyvəndlərin alınması
9. Aktyorlara mükafatların verilməsi

səhiyyə sahəsi

təhsil sahəsi

mədəniyyət sahəsi




Dövlət büdcəsinə Azərbaycan Respublikasının Milli Məclisi və Hesablama Palatası nəzarət edir.




Dünyada bəzi ölkələrin büdcə gəlirinin böyük hissəsi neftin satılması ilə yaranır. Məsələn, Rusiya, İran, Qətər Əmirliyi belə ölkələrdəndir.




Dövlət büdcəsi gəlirlər və xərclər hesabına yaranır. Dövlət büdcəsinə də qənaət etmək və israfla xərcləmək olar. Qənaət səmərəli istifadə etmək, israf isə lazımsız xərclər etməkdir.

# 19 Pullar



Pullar xüsusi kağızdan və metaldan hazırlanır. Kağız pula **əsginas**, metal pula **sikkə** deyilir. Pulun üzərində aid olduğu ölkə ilə bağlı müxtəlif əlamətlər və simvollar təsvir edilir.

Azərbaycanın milli pul vahidi manatdır. Başqa dövlətlərin də öz pul vahidi var. Məsələn, lirə Türkiyənin, Amerika dolları Amerika Birləşmiş Ştatlarının, yuan Çinin, funt sterlinq Böyük Britaniyanın pul vahididir. İyirmi Avropa ölkəsinin əsas pulu avrodur. Bu pul vahidlərinin hər birinin öz işarəsi var.

Müasir Azərbaycan manatının tarixi Azərbaycan Demokratik Respublikasının 1919-cu ildə çap etdirdiyi pullarla başlayıb. Müasir Azərbaycan dövlətinin ilk manatı isə 1992-ci ildə dövriyyəyə buraxılıb.

**1 manat** mədəniyyət mövzusuna həsr olunub. Üstündə tar, kamança, qaval, not açarı, arxa tərəfində isə qədim xalça naxışları və Azərbaycan xəritəsi təsvir edilib. **5 manat** yazı və ədəbiyyat mövzusuna həsr olunub. Bir tərəfində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri, qədim kitablar, Dövlət Himnindən bir parça və müasir əlifbamızın hərfləri əks olunub. Arxa tərəfində isə Qobustanın qaya rəsmləri və qədim türk əlifbası ilə yazı verilib. **10 manatlıq** əsginasın üzərində qədim Bakı, Qız qalası, Şirvanşahlar sarayı, arxa tərəfində Azərbaycan xalçasının naxışları əks edilib. **20 manat** Qarabağ mövzusuna həsr olunub. Üz tərəfində qılınc, dəbilqə, qalxan və sülh rəmzi olan xarıbülbül, arxa tərəfində milli naxışlar var. **50 manat** təhsil və gələcək mövzusuna həsr edilib. Üz tərəfində pillələr, günəş, kimyəvi və riyazi simvollar, arxa tərəfində qədim Azərbaycan xalçalarının naxışları təsvir olunub.

Milli pula hörmət və ehtiramla yanaşmaq lazımdır. Onu cırmaq, əzmək, yazmaq olmaz.

**Sizcə, pulları necə fərqləndirmək mümkündür?**

# Fəaliyyət

Müxtəlif dövlətlərin pul vahidlərinin fərqləndirilməsi.

Fəaliyyət üçün lazımdır:



1




Manatın simvolunu çəkin və haqqında bildiklərinizi yazın.

2




Avronun simvolunu çəkin və 1 avronun neçə Azərbaycan manatına bərabər olduğunu yazın.

3




Dolların simvolunu çəkin və 1 dolların neçə Azərbaycan manatına bərabər olduğunu yazın.

4




Liranın simvolunu çəkin, hansı ölkəyə aid olduğunu yazın.

5




1 liranın neçə Azərbaycan manatına bərabər olduğunu yazın.

6




Yuanın simvolunu çəkin, hansı ölkəyə aid olduğunu və 1 yuanın neçə manat olduğunu yazın.

1. Başqa hansı pul vahidlərini tanıyırsınız?
2. Sizcə, nə üçün başqa ölkələrin pullarını tanımaq lazımdır?



❓ Bütün Azərbaycan əsginaslarının üzərində hansı təsvir var?

❓ Hansı Azərbaycan manatı təhsil və gələcək mövzusuna həsr edilib?

**T** Qarabağ mövzusuna həsr edilən əsginası seçin:










❓ Sizcə, 50 manatın üzərində təsvir edilmiş pillələr hansı mənanı ifadə edir və o nəyə görə pulun üzərində təsvir edilib?




**T** Uyğunluğu müəyyən edin.

1




2




Amerika | Avropa | Türkiyə | Azərbaycan

3




4



T 100 və 200 manatlıq əsginasların üzərindəki elementlər haqqında məlumat toplayın.

T Uyğunluğu müəyyən edin.

| Mövzular | Manat |
|---|---|
| 1. mədəniyyət | 10 |
| 2. yazı və ədəbiyyat | 1 |
| 3. tarix | 5 |
| 4. Qarabağ | 20 |
| 5. təhsil və gələcək | 50 |
| 6. iqtisadiyyat və inkişaf | 100 |

T Azərbaycan qəpiklərinin üzərində verilən simvollar haqqında məlumat toplayın və təqdimat hazırlayın.

Y Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinə əsasən, ölkəmizin ərazisində ödəniş vasitəsi kimi manatdan başqa hansısa pul vahidindən istifadə qadağandır!




Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsinin şərəfinə 500 manatlıq "Qələbə" əsginası buraxılıb.




Yeni 10 manatlıq əsginasın kənarlarında görmə məhdudiyyəti olan insanlar üçün qabarıq xətlərdən ibarət tanınma elementi əks olunub.




Dövlətlərin pul vahidləri müxtəlifdir. Bu pullar rənginə, üzərində təsvir edilən simvollara və əlamətlərə görə bir-birindən fərqlənir.

# 20 Fövqəladə hallar və nişanlar



Fövqəladə hallar təbii fəlakətlər və texnogen qəzalar nəticəsində yaranır. Zəlzələ, sel, daşqın, torpaq sürüşməsi, vulkan püskürməsi, qar uçqunu, sunami, fırtına və s. fövqəladə halları yaradan təbiət hadisələridir. Texnogen mənşəli fövqəladə hallar isə insan fəaliyyəti nəticəsində baş verir.

Müasir dövrdə ən təhlükəli texnogen qəza kimyəvi və radioaktiv qəzalardır. Çünki bu zaman ətraf mühit və insanlar zəhərlənir.

İnsanlar bu cür qəzalar baş verdikdə necə davranmaq lazım gəldiyini bilməlidirlər. Bundan başqa, belə hadisələrin baş verə biləcəyi ərazilərlə bağlı təhlükəsizlik nişanlarına diqqət yetirmək, onların olduğu yerlərdə ehtiyatlı davranmaq lazımdır. Bu zaman insanlar həm özlərini, həm də başqalarını bir çox qəzalardan qoruya bilərlər.

Məsələn, otaqda yanğın törədə biləcək maddələrin olmasını xəbər verən lövhələr üçbucaq formada və sarı rəngdə olur. Bu işarənin ətrafında qara haşiyə verilir, mərkəzdəki şəkil isə qara rəngdədir. Tezalışan maddələrin, oddan təhlükəli avadanlıqların olduğunu xəbər verən nişanın mərkəzində yanan ocaq şəkli təsvir edilir. Partlayışın təsvir olunduğu nişan partlayış təhlükəsinin olduğundan xəbər verir. Zəhərli maddələrin olduğunu göstərən nişanın üzərində isə kəllə və kəsişən sümük işarələri olur. Bundan başqa, radioaktiv maddələrin, zəhərli qazların yarana biləcəyini xəbər verən nişanlar var ki, onlar da sarı rəngdədir və mərkəzində ventilyator işarəsi çəkilib.

Təhlükəsizlik nişanları arasında qadağanedici nişanlar da var. Onlarda qırmızı rəngli dairənin üzərində kəsişən xətt təsvir edilir.

Əslində, bu işarələrə diqqətlə baxdıqda onları oxumaq mümkündür.

**Sizcə, qadağan nişanları ilə təhlükə olduğunu xəbər verən nişanların fərqi nədədir?**

## Fəaliyyət

Nişanların fərqlən-dirilməsi.

Fəaliyyət üçün lazımdır:




1



Təhlükəsizlik nişanlarını seçin və iş vərəqinə yapışdırın.

2




Təhlükəsizlik nişanlarını digər nişanlardan fərqləndirən əsas xüsusiyyəti qeyd edin.

3




Hər birinin mənasını nişanların yanında yazın.

4



Qadağan nişanlarını seçin və iş vərəqinə yapışdırın.

5




Qadağan nişanlarını digər nişanlardan fərqləndirən əsas xüsusiyyəti qeyd edin.

6




Hər birinin mənasını nişanların yanında yazın.

1. Başqa hansı nişanlar haqqında məlumatınız var?
2. Bu nişanları tanımaq nə üçün vacibdir?



Sizcə, yol hərəkəti nişanları ilə təhlükəsizlik nişanlarının fərqi nədədir?

Necə düşünürsünüz, təhlükəsizlik nişanlarından yollarda istifadə edilə bilərmi? Nə üçün belə düşünürsünüz?

Təhlükəsizlik nişanlarından başqa harada istifadə edilə bilər?

Aşağıdakı nişanlara gündəlik həyatda harada rast gəlmisiniz?



Verilən nişanı oxumağa çalışın. Araşdırma aparın.



Xəstəxanalarda rentgen otaqlarının qapısına bu nişan vurulur. Sizcə, onun mənası nədir?



Aşağıdakı işarələrin mənasını araşdırın.




Verilən nişanlardan hansı təbii fövqəladə hal olduğuna işarə edir?



Məktəb ətrafında, yaşadığınız məhəllədə rast gəldiyiniz təhlükəsizlik nişanlarının qeydiyyatını aparın və sinifdə müzakirə edin.



**Fakt**

Təhlükəsizlik nişanları arasında göy rəngli **məcburi əməletmə nişanları** da var. Bu nişanlar müəyyən ərazilərdə əlcək, maska, dəmir papaq taxmağı tələb edir.



**Maraqlı**

Bu gün zəhərli və təhlükəli maddələr haqqında xəbərdarlıq edən – kəllə və sümük təsvir edilən nişan bir zamanlar dəniz quldurlarının bayraqlarında olub.



**Nəticə**

Müxtəlif fövqəladə və təhlükəli hadisələrin ola biləcəyi ilə bağlı xəbərdarlıq nişanları var. Onlar bir-birindən rənginə və təsvir edilən şəklə görə fərqlənir.

# 21 Fövqəladə hallarda davranış qaydaları



Fövqəladə hallar zamanı müxtəlif qaydalara əməl edilməlidir. Zəlzələ baş verdikdə ilk təkanı hiss edən kimi binanı tərk etmək lazımdır. Əgər bunu bacarmasanız, mənzilin yükdaşıyan divarının, möhkəm ayaqları olan masanın altında gizlənə bilərsiniz. Bu vaxt diz üstə çökməli, yaxud böyrü üstə uzanıb ayaqlarınızı bükməlisiniz. Başı əllərlə qorumaq lazımdır. Dağıntı altında qalmısınızsa, qışqıraraq yerinizi bildirməyə çalışın.

Fırtına, qasırğa və ya güclü külək olarkən qapı və pəncərələri bərk bağlayın və mənzildəki içəri otaqlardan birində qorunun.

Nüvə partlayışı olduqda ərazidən küləyin əks istiqamətində uzaqlaşın. Çünki külək zəhəri daha tez yayır. Zəhərli kimyəvi maddələrlə bağlı qəza baş verdikdə əleyhqaz, tibbi maska, rezin çəkmə və plaşdan istifadə edin. Təhlükəli ərazidən uzaqlaşana qədər onları çıxarmayın. Təhlükəli ərazini tərk edə bilmirsinizsə, çoxlu maye, süd, su və çay qəbul edin.

Yanğın baş verdikdə onun şiddətlənməməsi üçün qapı və pəncərələri açmaq olmaz. Tüstü yarandığından ağız və burnunuzu nəm dəsmalla bağlayın və evin içində əyilərək hərəkət edin. Evdən çıxa bilmirsinizsə, pəncərəyə yaxın yerdə durub yanğınsöndürənləri gözləyin.

Qaz sızmasından şübhələnərsinizsə, elektriki yandırmayın. Dərhal qapı-pəncərələri açın. Unutmayın ki, hər bir ailənin fövqəladə hallara hazırlıq planı olmalıdır. Onu da yaddan çıxarmayın ki, müxtəlif təbii fəlakətlərin, qəzaların qarşısını almaq mümkün olmasa da, onlardan qismən də olsa, sığortalanmaq olar. Sığorta qəzalar və təbii fəlakətlər zamanı insanların həyatına, sağlamlığına, mallarına və mülklərinə dəyən zərərin aradan qaldırılması üçün edilir. Bu işi sığorta şirkətləri həyata keçirir.

**? Fövqəladə hal baş verən zaman ilk olaraq nə etmək lazımdır?**

## Fəaliyyət

Fövqəladə hallarda davranış qaydaları.

Lazım olan şəkillər:






Şəkilləri nəzərdən keçirin. Yanğın zamanı davranış qaydasına aid olan şəkli seçin.




Bu davranışın səbəbini yazın.




Zəlzələ zamanı davranış qaydasına aid olan şəkilləri seçin.




Bu davranışların səbəbini izah edin.




Kimyəvi zəhərlənmə zamanı davranış qaydasını əks etdirən şəkilləri seçin.




Bu davranışların səbəbini izah edin.

1. Bu davranış qaydalarından hansılar bir-birinə bənzəyir?
2. Fövqəladə hallar baş verən zaman nə üçün, ilk növbədə, təmkinli olmaq tələb edilir?



Təbii fəlakətlər dedikdə hansı hadisələr nəzərdə tutulur?

Texnogen qəza nədir və onun təbii fəlakətlərdən fərqi nədədir?

Sizcə, nə üçün mənzildə yanğın baş verən zaman pəncərələri açmaq olmaz?

Mənzildə qaz sızması varsa, elektriki yandırmaq nə üçün təhlükəlidir?

Zəlzələ baş verən zaman binanı tərk edərkən nə üçün liftdən istifadə etmək olmaz?



Qasırğa və fırtınadan başqa, hansı təbii fəlakət zamanı ağac altında durmaq insan həyatı üçün təhlükə yaradır?

Nə üçün hər bir ailənin fövqəladə hallara hazırlıq planı olmalıdır? Sizin ailənizdə belə bir plan varmı? Bu planda nələr nəzərdə tutulur? Ailə üzvlərinizlə bu barədə söhbət edin və plan hazırlayın.



Uyğunluğu müəyyən edin.



zəlzələ



fırtına



qasırğa

Açıq ərazidə olmaq



kimyəvi zəhərlənmə



sel



yanğın

Tibbi maskadan istifadə etmək

Həyatda rast gəldiyiniz və ya şahidi olduğunuz hansısa bir fövqəladə hal olubmu? Olubsa, necə davrandığınızı və etdiyiniz səhvləri xatırlayın. Bu barədə kiçik mətn yazın.

Azərbaycanda baş vermiş zəlzələlər və onların nəticələri haqqında kiçik bir araşdırma aparın.

Azərbaycanda daha çox baş verən təbii fəlakətlər haqqında təqdimat hazırlayın.




Azərbaycanda zəlzələlərin daha çox baş verdiyi ərazi Şamaxıdır. Ölkəmizdə baş vermiş 10 ən güclü zəlzələdən 6-sı Şamaxıda olub.




Sunami sualtı zəlzələ və vulkan püskürməsi nəticəsində dəniz suyunun hərəkətə gəlməsidir. Bəzi alimlər hesab edirlər ki, Xəzər dənizində sunami ola bilməz. Çünki bu fəlakət çox böyük su hövzələrində olur.




İnsanlar fövqəladə hallar zamanı düzgün davranış qaydalarına əməl etməklə özlərini təhlükələrdən qoruya bilərlər. Bu davranışlardan ən birincisi təmkinli olmaq və “112”-yə zəng etməkdir.

# 22 Planın çəkilməsi



Fövqəladə hallar baş verdikdə ilk tibbi yardım bacarıqları sizin köməyinizə çatacaq. Lakin siz həm də yaşadığınız mənzilin, binanın, məhəllənin, ərazinin planını bilməlisiniz. Çünki plan əsasında təkcə binadan çıxışın, məhəllədə sizə lazım olan obyektlərin yerini deyil, həm də necə və hansı istiqamətdə hərəkət etməli olduğunuzu da biləcəksiniz. Deməli, siz həm planı çəkməyi, həm də oxumağı bacarmalısınız.

Plan istənilən bir əşyanın və obyektin yuxarıdan görünüşüdür. Planda əşya, bina və məhəllələr haqqında məlumatlar əks olunur. Stolun üstündəki kitab, stəkan, qələmqabı planda görünüşlərinə uyğun şəkildə – düzbucaqlı, dairə, kvadrat kimi göstərilir. Mənzildəki əşyalar, binadakı otaqlar, məhəllədəki binalar da formalarına uyğun təsvir edilir.

Planda hər bir predmetin, obyektin yeri dəqiq göstərilməlidir. Məsələn, binanın planına əsasən, siz burada nələrin yerləşdiyini, necə və hansı sıra ilə düzüldüyünü, çıxışların harada olduğunu və s. görə bilərsiniz. Məhəllənin düzgün tərtib edilmiş planına əsasən, binaların düzülüşünü, aptek, polis bölməsi, mağaza və bağçanın harada yerləşdiyini, həmçinin digər obyektlərin yerini müəyyən etmək olar.

Evlər tikilməzdən, məhəllə və küçələr, hətta şəhərlər belə salınmazdan əvvəl mütləq onların planı tərtib edilir.

Planda təsvir edilən əşyaların ölçüləri, ən azı, on dəfə kiçildilməlidir. Bundan daha artıq da kiçildilə bilər. Bu barədə məlumat planın küncündə mütləq qeyd edilməlidir.

**Binanın planı ilə məhəllənin planı arasında fərq nədir?**

# Fəaliyyət

Planın çəkilməsi.

Fəaliyyət üçün lazımdır:







Şəklə baxın, obyektlərin sayını və yerini müəyyənləşdirin.



Ölçülərə əsasən planda obyektlərin yerini müəyyənləşdirin.




Planda təsvir olunacaq obyektlərin ölçülərini müəyyən edin və yazın.




Ölçülər əsasında obyektlərin şəklini çəkin.



Planda təsvir olunacaq obyektlərin ölçülərini bir neçə dəfə kiçildin.




Planda ölçüləri nə qədər kiçiltdiyinizi qeyd edin.

1. Sizə verilən şəkil ilə plan arasında oxşarlıq nədədir?
2. Sizə verilən şəkil ilə çəkdiyiniz plan arasında əsas fərqlər nədən ibarət oldu?



Plan nə üçün çəkilir?

Planda əşyaları təsvir edərkən hansı qaydalara əməl etmək lazımdır?

Sizcə, nə üçün evlərin, küçələrin, şəhərlərin salınmasından əvvəl planı çəkilir?

Plan hansı hallarda insanların köməyinə çata bilər?

Xəritə ilə plan arasında oxşarlıq nədən ibarətdir?







Yaşadığınız məhəllənin planını çəkin.

Verilmiş şəklin hansısa bir hissəsinin planını təsvir edin.



Aşağıda verilmiş planı oxuyun.






Hər bir şəhər kimi, Bakının da Baş Planı var. Sonuncu Baş Planda 2040-cı ilə qədər paytaxtdakı tikintilərin necə təşkil ediləcəyi nəzərdə tutulub.




Bakının Baş Planında tikiləcək binaların ətrafında yaşıllıq sahələrinin çox olması nəzərdə tutulur. Bütün tikililərə “Təmiz şəhər” yanaşması tətbiq ediləcək.




Planda evin, məhəllənin, şəhərin yuxarıdan görüntüsü verilir. Binanın planında mənzillər, onların yerləşməsi, çıxış yerləri, məhəllə planında isə evlər, küçələr və obyektlərin yeri göstərilir.

# 23 İlk tibbi yardım



Məişət cihazları və elektrik avadanlıqları ilə davranış qaydalarını bilmək lazımdır. Cərəyan vurmasın deyə yaş əllərlə elektrik ötürücülərinə, yaxud cihazlara toxunmaq olmaz. Bıçaqdan, qayçıdan istifadə zamanı əlinizi bu alətlərin kəsici hissəsinə vurmamalısınız. Lakin hər hansı bir zədələnmə baş verərsə, ilk tibbi yardım bacarıqlarına malik olmağınız köməyinizə çatacaq.

Kəsik və yaralanma olduqda yara dərin deyilsə, ətrafı spirt və ya hidrogen peroksid məhlulu ilə təmizlənir, yara bandı ilə bağlanır. Qanaxma varsa, dayandırmaq üçün yaranın üstünə sarğı qoyulur. Bint mütləq steril, yəni təmiz olmalıdır. O, qanın dayanmasına kömək edəcək, yaranı mikroblardan qoruyacaq. Yanıq zədəsi aldıqda dərhal həmin hissəni soyuq suyun altına tutmaq lazımdır. Sonra yanıq dərmanlarından istifadə etmək olar. Dəridə yaranan suluqlara qətiyyən toxunmaq olmaz.

Yüngül zədələnmədən, yaxud günəş şüalarının təsirindən uşaqlarda burundan qanaxma halları olur. Bu zaman ən çox edilən səhvlərdən biri başı arxaya əyməkdir. Bu halla qarşılaşdıqda baş bir az önə əyilməlidir. Qan bir qədər axdıqdan sonra burun dəliklərindən bir az yuxarı hissədən tutub, 5–10 dəqiqə sıxımaq lazımdır. Bu vaxt nəfəs ağızla alınır. Burunun başlanğıc hissəsinə və ənsəyə isladılmış dəsmal, yaxud buz qoymaq olar. Bu halda qanaxma dayanacaq. Əgər dayanmasa, "Təcili tibbi yardım" çağırın.

Tez-tez rast gəlinən qəzalar arasında sınıqlar da olur. "Təcili tibbi yardım" yoldadırsa, gözləyin. Sınmış yeri qətiyyən düzəltmək və hərəkət etdirmək olmaz. Hərəkətsizlik ağrını nisbətən azaldacaq. Məsələn, əgər sınan barmaqdırsa, onu sağlam barmaqla birlikdə sarımaq lazımdır.

**? Sizcə, ilk tibbi yardım bacarıqlarına malik olmaq nə üçün vacibdir?**

# Fəaliyyət

İlk tibbi yardımın göstərilməsi.

Fəaliyyət üçün lazımdır:




1 

Kəsiklər zamanı ilk tibbi yardım üçün lazım olan vasitələri seçin.

2 

Bu vasitələrdən istifadə etməklə kəsik yarası olan şəxsə ilk yardımın necə edildiyini göstərin.

3 

Yanıq zamanı ilk tibbi yardım üçün lazım olan vasitələri seçin.

4 

Bu vasitələrdən istifadə etməklə yanıq yarası olan şəxsə ilk yardımın necə edildiyini göstərin.

5 

Biləkdə sınıq olduğu zaman ilk tibbi yardım üçün lazım olan vasitələri seçin.

6 

Bu vasitələrdən istifadə etməklə sınığı olan şəxsə ilk yardımın necə edildiyini göstərin.

1. Sizcə, ilk tibbi yardım göstərməyi yalnız həkimlər bilməlidir?
2. Başqa hansı ilk tibbi yardım qaydalarını bilirsiniz?



Elektrik cihazlarından istifadə zamanı hansı qaydalara əməl edilməlidir?

Deşici və kəsici alətlərdən istifadə zamanı yaralanmamaq üçün hansı qaydaları bilmək lazımdır?

Şəkillərdə hansı təhlükəsizlik qaydaları pozulub? Səbəbini izah edin.




İlk tibbi yardımla bağlı hansı məlumatlar düzgündür?

1. Burnu qanayan insan başını önə əyib qanın bir az axmasına imkan verməlidir.
2. Qanayan yaranın ətrafını hidrogen peroksid məhlulu ilə təmizləmək lazımdır.
3. Yanıq yarasını su ilə yumaq olmaz.
4. Sınıqlar zamanı sınan yeri düzəltməyə çalışmaq lazımdır.

Sizcə, burun qanaması zamanı nə üçün başı arxaya əymək olmaz?






Ümumdünya İlk Tibbi Yardım Günündə "Qızıl Aypara" və "Qızıl Xaç" cəmiyyətləri ilk tibbi yardım qaydalarının əhaliyə öyrədilməsi üçün xüsusi pulsuz kurslar təşkil edir.

Qazdan istifadə ilə bağlı təhlükəsizlik qaydaları haqqında məlumat toplayın və yazın.




Sentyabrın ikinci həftəsinin şənbə günü bütün dünyada **Ümumdünya İlk Tibbi Yardım Günü** kimi qeyd edilir.



Yanıq yarası nə üçün soyuq suyun altına tutulmalıdır?






Qəzalar baş verdikdə malik olduğunuz ilk tibbi yardım bacarıqları özünüzə və başqalarına kömək etmək üçün lazım olacaq.

Günvurma zamanı göstərilən ilk tibbi yardım haqqında məlumat toplayın və təqdimat hazırlayın.

Sinfiniz üçün ilk tibbi yardım çantası hazırlayın.

# 24 Yol hərəkəti qaydaları



Yol hərəkəti qaydaları qanunla nizamlanır. Qanunda həm piyadalar, həm sürücülər, həm də sərnişinlər üçün qaydalar var. **Piyadalar** yol hərəkətində iştirak edən, lakin yolda heç bir iş görməyən şəxslərdir. Onlar səki ilə, piyada zolağı ilə hərəkət etməlidirlər. Ehtiyac olduqda velosiped yolundan da yararlanmaq olar. Yolu keçərkən piyada keçidlərindən, yeraltı və yerüstü keçidlərdən istifadə etmək lazımdır.

Piyada keçidlərindən keçərkən yaxınlaşmaqda olan avtomobillərin sürəti, onlara qədər olan məsafə nəzərə alınmalıdır. Yolu yalnız təhlükəsiz şəraitdə keçmək olar. Bəzən uşaqlar dəstə halında yol keçməli olurlar. Bunun üçün günün yalnız işıqlı vaxtından istifadə etmək lazımdır. Həm də bunu ancaq böyüklərin müşayiəti ilə etmək olar.

**Sərnişinlər** avtobusu yalnız dayanacaqlarda gözləməlidirlər. Avtobus dayandıqdan sonra minmək üçün yolun hərəkət hissəsinə çıxmaq olar. Nəqliyyat vasitəsindən düşdükdən sonra ləngimədən səkiyə çıxmaq lazımdır. Bundan başqa, sərnişinlər hərəkət vaxtı sürücünün diqqətini yayındırmamalıdırlar. Təhlükəsizlik kəməri olan avtomobildə gedərkən kəməri bağlamalı, motosikletdə isə motoşlem geyinməlidirlər. Hərəkətdə olan avtobusun içərisində gəzmək olmaz.

Velosipedi idarə edən şəxs xüsusi velosiped zolaqları ilə, bunlar olmadıqda isə yolun, küçənin hərəkət hissəsinin kənarı ilə getməlidir. Velosiped zolağı ilə bağlı yol nişanı da mövcuddur. Yol hərəkəti qaydalarına əməl etmək, məlumatverici, xəbərdarlıq və qadağan yol nişanlarını tanımaq lazımdır.

**Sizcə, yol nişanlarının yol hərəkəti qaydaları ilə hansı əlaqəsi var?**

# Fəaliyyət

Yol hərəkəti qaydalarını nizamlayan yol nişanları.

Fəaliyyət üçün lazımdır:




1 

Qadağan nişanlarını seçin və hansı ümumi əlamətləri olduğunu yazın.

4 

Bu nişanların hansı qaydalarla əlaqəsi olduğunu qeyd edin.

2 

Bu nişanların hansı qaydalarla əlaqəsi olduğunu qeyd edin.

5 

Məlumatverici nişanları seçin və hansı ümumi əlamətləri olduğunu yazın.

3 

Xəbərdarlıq nişanlarını seçin və hansı ümumi əlamətləri olduğunu yazın.

6 

Bu nişanların hansı qaydalarla əlaqəsi olduğunu qeyd edin.

1. Sizcə, yol nişanlarını tanımadan yol hərəkəti qaydalarını bilmək olarmı?
2. Yol nişanlarında hansı ümumi xüsusiyyətlər müəyyən etdiniz?



Kimlər piyada adlandırılır?

Piyadalar hansı qaydalara əməl etməlidirlər?

Kimlərə sərnişinlər deyilir?

Aşağıdakı qaydalardan hansı sərnişinlərə aiddir?

**1.** Piyada zolağı və səki ilə hərəkət etmək
**2.** Avtobusa o dayandıqdan sonra minmək
**3.** Yolu piyada keçidindən keçmək
**4.** Velosipedi sürərkən velosiped zolağından isifadə etmək

Velosiped sürdüyünüz zaman bu işarələrdən hansının qoyulduğu yola daxil olmazsınız?










Uyğunluğu müəyyən edin:

**1.** Ayaq üstündə dayanmaq olmaz.
**2.** Sürücünün diqqətini yayındırmaq olmaz.
**3.** Təhlükəsizlik kəmərini taxmaq lazımdır.
**4.** Telefonu işlək rejimdə saxlamaq olmaz.
**5.** Eskalatorda qaçmaq olmaz.
**6.** Stüardessanın təlimatlarına əməl etmək lazımdır.

- təyyarədə
- avtobusda
- metroda

Servis nişanları haqqında araşdırma aparın və təqdimat hazırlayın.




Verilən nişanların mənalarını araşdırın.




Uyğunluğu müəyyən edin:

Qadağan nişanları

Məlumatverici nişanlar

Xəbərdarlıq nişanları

**a)** dördkünc, mavi rəngdə olur
**b)** qırmızı və dairə şəklində olur
**c)** qırmızı və üçkünc şəkildə olur



**Fakt**

Piyada keçidinin olması sizə "Yol sizindir!" ismarışını verməməlidir. Mütləq hərəkətdə olan avtomobilin sürəti və aradakı məsafə nəzərə alınmalıdır.



**Maraqlı**

Danimarkada qanuna görə, sürücü avtomobili işə salmazdan öncə maşının altına baxmalıdır. Çünki hansısa canlı avtomobilin altında qalaraq həyatını itirə bilər.



**Nəticə**

Yolda təhlükəsiz hərəkət etmək üçün piyadalar, sərnişinlər və sürücülər yol hərəkəti qaydalarına əməl etməlidirlər. Yol nişanları yol hərəkətini tənzimləyən vasitələrdən biridir.

# 25 Coğrafi obyektlər xəritədə



Coğrafi obyektlərin yeri xəritələrə əsasən təyin edilir. Yəqin ki, hər biriniz xəritənin nə olduğunu bilirsiniz. Biz xəritələr vasitəsilə müxtəlif coğrafi obyektlər – dağ, dərə, çay, dəniz, okean, materik və adalar, ölkələr və şəhərlərin yeri haqqında məlumat alırıq. Adətən, xəritələrdə coğrafi obyektlər kiçildilərək verilir. Buna görə də bütün obyektləri xəritələrdə göstərmək mümkün deyil.

Xəritələr müxtəlif məzmunda ola bilər. Məsələn, bütün dünyanın xəritəsi, materiklərin və okeanların xəritəsi, ölkələrin və onların hansısa bir hissəsinin xəritəsi var. Təbii zonaların da təsvir edildiyi xüsusi xəritələr hazırlanır.

Xəritə əsasında biz Azərbaycanın quruda 5 dövlətlə – Rusiya, Gürcüstan, Ermənistan, Türkiyə və İranla həmsərhəd olduğunu müəyyən edə bilərik.

Xəritəyə baxdıqda Azərbaycanın dünyanın ən böyük gölü olan Xəzər dənizinin sahilində yerləşdiyi, ölkəmizin dənizdən Qazaxıstan, Türkmənistan və Rusiya ilə həmsərhəd olduğu görünür.

Xəritələrdən inşaat işləri aparılarkən, yollar və kanallar çəkilərkən istifadə olunur. Xəritələr vətəni qoruyan hərbçilərimiz üçün də əvəzolunmazdır.

Hazırda kosmosdan çəkilən foto şəkillərin köməyi ilə daha dəqiq xəritələr hazırlanır.

**Sizcə, xəritələr bizə başqa hansı məlumatları verə bilər?**

# Fəaliyyət

Xəritə üzərində iş.

Fəaliyyət üçün lazımdır:












Verilmiş xəritələrə nəzər salın. Azərbaycanın hansı ölkələrlə həmsərhəd olduğunu müəyyən edib yazın.




Azərbaycanda hansı düzənliklərin olduğunu müəyyən edin.




Azərbaycanda hansı adaların olduğunu müəyyən edin və adlarını yazın.




Azərbaycanda hansı çayların olduğunu müəyyən edin və adlarını yazın.




Azərbaycanda hansı dağların olduğunu müəyyən edin və adlarını yazın.




Azərbaycanın şəhərlərini müəyyən edin və adlarını yazın.

1. Xəritədə hansı coğrafi obyektləri müşahidə etdiniz?
2. Müxtəlif coğrafi obyektləri tapmaqda sizə hansı biliklərinii kömək etdi?
3. Xəritəyə əsasən başqa hansı obyektləri müəyyən edə bilərsiniz?



Xəritədə hansı coğrafi obyektlər mavi rənglə göstərilir? Adlarını sadalayın.

Xəritədə qəhvəyi rənglə verilən obyektlər hansılardır?

Sizcə, dünya ölkələri haqqında məlumat xəritəyə necə sığışdırılır?

Verilmiş xəritədə Azərbaycan əhalisinin ən çox olduğu bölgələr hansı rənglə təsvir edilib?




Azərbaycan xəritəsinə baxaraq çayları və dağları müəyyən edin.

Sizcə, bu xəritə əsasında hansı məlumatları ala bilərik?




Xəritədəki işarələrə əsasən dağların, düzlərin adlarını müəyyən edin.

Xəritəyə əsasən Azərbaycanda olan zirvələrin adlarını müəy-yən edib yazın.

Xəritəyə əsasən Azərbaycanla həmsərhəd olan ölkələrin pay-taxtlarını müəyyən edib yazın.

Sizcə, milli parkları və təbiət qoruqlarını coğrafi obyekt adlan-dırmaq olarmı? Fikrinizi əsaslandırın.




İlk xəritəni eramızdan əvvəl V əsrdə yunan filosofu yaradıb. Bu xəritədə okeanla əhatə olunmuş quru kütləsi göstərilirdi. İlk tam dünya xəritəsi isə 1570-ci ildə nəşr olunub.




İbtidai insanlar öz ərazilərində olan obyektləri qayalar və ağac qabıqları üzərində təsvir ediblər. E.ə. 4000-ci ildə Babilistan şəhərinin mərmər üzərində işlənmiş xəritəsi aşkar edilib.




Xəritələr coğrafi obyektlərin yeri haqqında insanlara dəqiq məlumat verir. Bəzi xəritələrdə dünya ölkələrinin əhalisinin sayı, hansı canlıların hansı ölkələrdə daha çox yayıldığı təsvir edilir.

T Səhv fikirləri seçib onları düzgün yazın.

- Dağlar, dərələr, çaylar, heyvanlar, dənizlər coğrafi obyektlərdir.
- Azərbaycan Rusiya ilə həmsərhəddir.
- Dağlar xəritədə mavi rənglə təsvir olunur.
- Müxtəlif coğrafi obyektlər xəritədə eyni rənglə təsvir olunur.

T Xəritəyə əsasən Qarabağ ərazisindəki çayları müəyyən edin. Adlarını yazın.

T Xəritəyə əsasən Türkiyənin şəhərlərini müəyyən edib yazın.

# 26 Təbii zonalar



Yer kürəsinin müxtəlif hissələrində istilik və rütubətin qeyri-bərabər şəkildə paylanması **təbii zonaların** yaranmasına səbəb olur. Təbii zonaların torpaq və bitki örtüyü, heyvanlar aləmi bir-birindən kəskin şəkildə fərqlənir. Bitki və heyvanların qidalanması, həyat tərzi də zonadakı iqlim şəraitindən asılıdır. Məsələn, **Arktika** və **Antarktida səhralarında** temperatur çox aşağı olduğundan burada bitki örtüyü azdır. Yayda buzdan azad olan ərazilərdə mamır, şibyə və yosunlar yaranır. Bu yerlərin əsas sakinləri olan ağ ayı, morj, suiti, pinqvin və başqaları güclü külək və şaxtaya uyğunlaşıblar.

**Tundrada** isə yay çox qısa və soyuq olur. Qar yayda ərisə də, torpağın donu açılmır və bitkilər zəif inkişaf edir. Tundrada şimal tülküsü, qütb bayquşu, ağ kəklik, şimal maralı yaşayır.

Soyuğa davamlı **tayqa meşələri** də təbii zonalardandır. Meşələrdə istilik və rütubət kifayət qədər olduğundan bitkilərin əksəriyyəti həmişəyaşıldır. Burada qonur ayı, canavar, vaşaq, sığın, su samuru, dələ, qunduz, sincab, tetraquşu, ağacdələn, bayquş kimi heyvanlar yaşayır. **Çöllər** düzənlik və alçaq təpəliklərdən ibarətdir. Yay isti və quraqlıq keçir, ot örtüyü yaxşı inkişaf edir, taxıl bitkiləri geniş yayılır. Canavar, tülkü, dovşan, torağay, qartal çöl sakinləridir.

**Savannalarda** quraqlıq və yağıntı mövsümləri bir-birini əvəz edir. Çöldən fərqli olaraq, savannada otlar çox hündür olur. Ən geniş yayılmış ağac baobabdır. Savannada otyeyən heyvanlar, begemot, zürafə, leopard, dəvəquşu, aslan çoxdur.

**Səhralarda** isə temperatur yüksəkdir, rütubət çatışmır. Tikanlı kollar, kaktus kimi bitkilər, dəvə, ilan, kərtənkələ kimi heyvanlar üstünlük təşkil edir. Dünyanın ən böyük səhrası Afrikadadır.

**?** Sizcə, Yerin təbii zonalarının bir-birindən fərqli olmasının səbəbi nədir?

## Fəaliyyət

Təbii zonalar və onların iqliminə uyğunlaşmış heyvanlar.

Lazım olan şəkillər:


Qütb bayquşu


Qütb ayısı


dəvə


Afrika dəvəquşusu


kərgədan


zürafə


ilan


kərtənkələ

1


Səhradakı iqlimə aid xüsusiyyətləri qeyd edin.

2

Səhrada yaşayan heyvanların şəkillərini seçin.

3


Savanna təbii zonası haqqında bildiklərinizi yazın.

4

Savannada yaşayan heyvanların şəkillərini seçin.

5


Tundra təbii zonasının xüsusiyyətlərini yazın.

6

Tundrada yaşayan heyvanların şəkillərini seçin.

1. Səhrada yaşayan heyvanlar hansı ümumi xüsusiyyətlərə malikdir?
2. Tundrada yaşayan heyvanlarda hansı ümumi xüsusiyyətlər var?
3. Hansı təbii zonalar arasında yaxınlıq müşahidə etdiniz?



Sizcə, Yer kürəsində müxtəlif təbii zonaların olmasının əsas səbəbi nədir?

Heyvanlar və bitkilərin yayıldığı təbii zonalar arasında hansı əlaqənin olduğunu düşünürsünüz?

Aşağıda qeyd edilən hansı xüsusiyyətlər səhraya aiddir?

**a.** rütubətin çox olması

**b.** quraqlıq

**c.** rütubətin az olması

**d.** çoxlu yağışların yağması

**e.** gündüz temperaturun 50 dərəcədən çox olması

Şəkillərdəki hansı canlılar tundrada yaşayır?


dəvə


begemot


ilan


ağ kəklik

Verilən bitkilərdən hansı savannada çox yayılıb?


kaktus


söyüd


baobab


şam ağacı

Sizcə, tundrada bitkilər aləmi nə üçün zəif inkişaf edir?

Soyuğa, şaxtaya və küləyə hansı təbii zonaların sakinləri daha dözümlü olurlar?

Sizcə, səhrada yaşayan heyvanların gündüzlər yatmasının səbəbi nədir?

Açar sözlərdən istifadə etməklə cümləları tamamlayın.

güclü · zəif · asılıdır · asılı deyil · rütubət · istilik

Arktika və Antarktidada bitki örtüyü _____ inkişaf edir. Meşələrdə isə _____ və _____ çox olduğundan ağaclar _____ inkişaf edir. Heyvanlar aləminin _____ olması bitki örtüyündən _____.

Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1 Temperatur yüksəkdir, rütubət çatışmır. | tundra |
| 2 Quraqlıq və yağış mövsümləri bir-birini əvəz edir. | səhra |
| 3 İstilik və rütubət kifayət qədərdir. | tayqa |
| 4 Yay isti və quraqlıq keçir. | çöl |
| 5 Yay qısa və soyuq olur. | savanna |
| 6 Temperatur çox aşağı və buzlaq olur. | Antarktida |

Antarktidada yaşayan canlılar haqqında araşdırma aparın və təqdimat hazırlayın.

Uyğunlaşdırın.

1. Şimal tülküsü
2. Qütb canavarı
3. Dovşan
4. Canavar
5. Zürafə
6. Kərgədan
7. Kərtənkələ
8. Dəvə

savanna

səhra

çöl

tundra

"Savanna" cizgi filminə baxın və öyrəndiklərinizi müzakirə edin. Savannada ən çox yayılmış canlının rəsmini çəkin.



Azərbaycan təbiəti və ölkəmizdə yayılmış canlılar haqqında araşdırma aparıb təqdimat hazırlayın.




Tayqadakı canlıların əksəriyyəti qış yuxusuna gedir. Çünki burada qışda temperatur -50 dərəcəyə qədər düşə bilər. Bu heyvanların arasında ayılar, gəmiricilər, sürünənlər var.




Şimali Afrikada yerləşən Saxara səhrasının adı "Ginnesin Rekordlar kitabı"na Yer kürəsinin ən böyük səhrası kimi düşüb. Halbuki dünyanın ən böyük səhrası Antarktikdir.




Yer kürəsində müxtəlif təbii zonalar var. Onların bitki örtüyü və heyvanlar aləminin bir-birindən fərqli olmasının səbəbi müxtəlif iqlim şəraiti, istilik və rütubətin fərqli olmasıdır.

# 27 Təbii ehtiyatlar



Təbii ehtiyatlar tükənən və tükənməyən olur. Su, neft, təbii qaz, mis, qızıl və s. tükənən təbii ehtiyatlar, Günəş enerjisi, külək isə tükənməyən təbii ehtiyatlardır. Təbii ehtiyatlardan yanacaq, elektrik enerjisi, gübrə, kağız və s. almaq üçün istifadə olunur. Onlardan elektrik enerjisi əldə etmək insanların ən böyük elmi kəşflərindəndir. Bunun üçün gursulu çayların üzərində **su-elektrik stansiyaları** tikilir və suyun sürətindən istifadə edilir. Kür çayı üzərində Mingəçevir Su-Elektrik Stansiyası və Şəmkir Su-Elektrik Stansiyası var.

Neft, qaz, daş kömür, torf kimi yanacaqlar vasitəsilə də elektrik enerjisi alınır. **İstilik elektrik stansiyaları** bu cür işləyir. Bu stansiyaların zərəri də var. Həm sərf edilən təbii qaz, neft, kömür tükənə bilər, həm də onlar yandırılarkən havaya zəhərli maddələr atılır.

Elm inkişaf etdikcə insanlar təbii ehtiyatlardan daha səmərəli və təbiətə zərər vurmadan istifadə etmək istəyirlər. Bu yollardan biri **tükənməyən** enerji mənbələri olan **Günəş** və **külək enerjisindən** istifadədir. Artıq Azərbaycanda da Günəş enerjisindən elektrik enerjisi alınır. Bunun üçün Günəş panellərindən istifadə olunur. Bakıda, Qobustanda, Naxçıvanda, Samuxda bu cür stansiyalar fəaliyyət göstərir.

Külək enerjisi də tükənmir və ətraf mühiti çirkləndirmir. İnsanlar hələ qədim zamanlardan küləyin gücündən istifadə edərək yelkənli gəmilər və yel dəyirmanları yaradıblar. Hazırda Abşeronda, Qobustanda, Xızıda külək enerjisi ilə işləyən stansiyalar mövcuddur.

**Sizcə, insanlar nə üçün alternativ enerji mənbələri axtarırlar?**

# Fəaliyyət

Təbii ehtiyatlar və enerji mənbələri.

Lazım olan şəkillər:



Su-elektrik stansiyası



Külək elektrik stansiyası



İstilik elektrik stansiyası



Günəş elektrik stansiyası




Şəkillərə nəzər yetirin və təsvir edin.




Elektrik əldə edilən stansiyalardan birinin şəklini seçin.




Bu stansiyanın elektriki necə əldə etdiyi haqqında bildiklərinizi yazın.




Azərbaycanda bu cür elektrik enerjisi alınan hansı stansiyaların olduğunu qeyd edin.




Bu enerji mənbəyinin hansının təbii ehtiyatla əlaqəli olduğunu qeyd edin.




Bu təbii ehtiyat vasitəsilə elektrik əldə edilməsinin mənfi və müsbət tərəflərini qeyd edin.

1. Sizcə, elektrikin əldə edilməsində elmin rolu nədən ibarətdir?
2. Alternativ enerji mənbələri hansı səbəbdən daha sərfəlidir?



Hansı təbii ehtiyatlar haqqında məlumatınız var?

Aşağıda verilmiş təbii ehtiyatların hansından yanacaq əldə edilir?



neft




qızıl



dəmir



gil

Elmin inkişafı ilə təbii ehtiyatlardan istifadə arasındakı əlaqə haqqında nə bilirsiniz?

Elektrik enerjisi almaq üçün insanlar hansı təbii ehtiyatlardan istifadə edirlər?

Bu təbii ehtiyatların hansından enerji alındığı zaman təbiətə ziyan vurula bilər?

qaz | torf | su | külək | Günəş enerjisi

Azərbaycanda hansı elektrik stansiyalarını tanıyırsınız?

Ölkəmizdə elektrik daha çox hansı yolla əldə edilir?

Bu enerji ehtiyatlarından hansı tükənməyən ehtiyat hesab edilir?


külək


qaz


neft


kömür

Tükənən təbii ehtiyatları sadalayın və onların istifadəsinin təbiətə vurduğu ziyanlar haqqında danışın.

Cümləni tamamlayın.

Tükənən təbii ehtiyatların tükənməyən təbii ehiyatlardan fərqi ondadır ki, ______.

Alternativ enerji ehtiyatlarından olan dağ çayları haqqında araşdırma aparın və təqdimat hazırlayın.

Azərbaycanda külək enerjisinin daha çox əldə edilə biləcəyi ərazilər haqqında araşdırma aparın.

Verilən fikirlərdən hansı doğrudur?

1. Azərbaycanın təbii şəraiti küləyin gücündən istifadə üçün yararlı deyil.
2. Dənizdə dalğaların gücündən də elektrik enerjisi alına bilər.
3. Tullantılardan elektrik enerjisi almaq mümkün deyil.




Dekorativ Günəş enerji panelləri adi evlərin dam örtüklərinə quraşdırılır. Bu panellər həm ev üçün elektrik enerjisi istehsal edir, həm də evin damını qoruyur.




Qədim dövrlərdə insanlar yeldəyirmanından yalnız dən üyütmək üçün istifadə edirdilər. Enerji əldə etmək üçün isə ilk dəfə yeldəyirmanı Danimarkada tikilmişdir.




Təbii ehtiyatlardan elektrik enerjisi almaq üçün istifadə edilir. Təbii ehtiyatların tükənməsinin qarşısını almaq üçün külək, Günəş enerjisi və s. kimi alternativ enerji mənbələri axtarılır.

Uyğunluğu müəyyən edin.


meşə


boru


neft


kağız


dəmir


mis qab


mis


yanacaq

İnsanların alternativ enerji mənbələrindən istifadə etməyə çalışmasına baxmayaraq, metal, kömür, neft və qaz bəşəriyyət üçün çox böyük əhəmiyyət daşıyan faydalı ehtiyatlardır. Çünki məhz onlar əldə edildikdən və elm adamları onları öyrəndikdən sonra bütün dünyada cəmiyyət, elm, texnika daha sürətlə inkişaf etməyə başladı.

## Buraxılış məlumatı

**HƏYAT BİLGİSİ 4**

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Cabbarlı**
**Könül Mahmudova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner **Bəxtiyar Ələkbərov**
Səhifələyici **Yeganə Rüstəmova**
Üz qabığının dizayneri
və rəssam **Emiliya Həsənova**
Multimedia mütəxəssisləri: **Yusif Qabilov**
**Kənan Yusifzadə**
Redaktor **Gültəkin Cəfərova**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**



**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-024**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 10,7. Fiziki çap vərəqi 15. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 120.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2023

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1123, Aşıq Ələsgər küç., 17)**

Pulsuz

## Əziz məktəbli!

**Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.**

**O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.**

**İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.**

**Sizə təhsildə uğurlar arzulayırıq!**

